Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

11 MART 2020-ci il

№ 43 (4174)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# DÜNYA SİLAH TİCARƏTİ BARƏDƏ ƏN SON HESABATDA AZƏRBAYCANIN YERİ - HİNDİSTAN VƏ VYETNAMDAN SONRA ÜÇÜNCÜ...

■ səh. 8 ■



■ səh. 3 ■

## Prezident yeni parlamentin özünəxas keyfiyyətlərini və tarixi missiyasını belə təqdim etdi... ilk qadın sədr, çoxpartiyalı...






**Azərbaycan koronavirusla mübarizədə yeni zəruri sərt qərarlar verir...**

■ səh. 4 ■

**Ermənistan yeni dollar eyforiyasında - «SSRİ belə dağılmışdı, bu dəfə Rusiya dağılacaq» - daşnakların yeni qəsbkarlıq planları varmı...**

■ səh. 7 ■

**Neft qiymət böhranından Azərbaycan üçün iqtisadi risq ehtimallarına o qədər də ciddi baxılmır...**

■ səh. 13 ■

Ankaranın Qarabağ fəallığının artmasına Rusiya da mane olmayacaq - Ermənistanda böyük əndişə...

■ səh. 9 ■

Ermənilərin Qazaxda intensiv sərhəd pozuculuğunun kökünə dair daha bir versiya - Azərbaycanı yenidən Milli Ordunu sərhədlərə qaytarmağa vadar etmək...

■ səh. 5 ■

Ermənistanın Qarabağ münaqişəsinin əsl mahiyyətini gizlətmək cəhdləri - onu xristian-islam savaşı kimi təqdim etməyə çalışırlar

■ səh. 10 ■

Milli dəyərlərə "sadiq" AXCP - ailə dəyərlərimizi puç edən "qadınlar" aksiyası niyə dəstəkləndi...

■ səh. 6 ■

Moskvada ermənilərin kino çəkilişi ilə daha bir uğursuz Qarabağ kampaniyası...

■ səh. 7 ■

Bakıda 8 mart aksiyasının təşkilatçıları ailə dəyərlərimizi necə təhqir etdilər...

■ səh. 11 ■

Dünya neft müharibəsinin mərkəzində yenə Səudiyyə - 20 dollar...

■ səh. 12 ■

Təmizlik şirkətləri də dezinfeksiyanı 50 qəpikdən 3 manata qaldırdılar - koronavirus şansını buraxmayanlar...

■ səh. 14 ■

■ səh. 2 ■

Eldar Sultanov: "Aysel Ələkbərzadə feminist hərəkatının qurbanıdır"



■ səh. 6 ■

"Sərhədsiz reportyorlar" Bakıda 8 mart "rəzilliyindən" şou düzəltdi, yunan sərhədində günahsız qaçqınların öldürülməsinə susdu...



■ səh. 5 ■

Erməni mediasının Azərbaycanda koronavirus ajiotajı yaratmaq cəhdləri...



■ səh. 11 ■

Sosial şəbəkələrin gücü tərbiyəsiz "feminist aksiyanı" darmadağın etdi



■ səh. 13 ■

Əlindəki manatı tələsik dollara çevirənlər düzmü edir?



## Nazirlər Kabinetindən xəbərdarlıq - süni qiymət artımına və əsassız qıtlığa qarşı sərt tədbirlər görüləcək

**Nazirlər Kabinetində neft bazarındakı vəziyyət, onun Azərbaycana təsirləri və qabaqlayıcı tədbirlər müzakirə olunub.**

NK-dan baki-xeber.com-a verilən məlumata görə, martın 10-da Azərbaycan Respublikasının Nazirlər Kabinetində Baş Nazir Əli Əsədovun sədrliyilə keçirilən müşavirədə qlobal enerji bazarında vəziyyət və onun iqtisadiyyata təsirinə dair məsələlər müzakirə edilib. Müşavirədə Azərbaycan Prezidentinin köməkçisi - Azərbaycan Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov, İqtisadiyyat naziri Mikayıl Cabbarov, Maliyyə naziri Samir Şərifov, Mərkəzi Bankın sədri Elman Rüstəmov, Dövlət Neft Fondunun İcraçı direktoru İsrafil Məmmədov və Baş nazirin köməkçisi Fəxri İsmayılov iştirak edib.

Bildirilib ki, dünyada koronavirus infeksiyasının yayılmasının qlobal iqtisadiyyata mənfi təsirlərinin artdığı şəraitdə əsas neft ixracatçıları arasında hasilatın həcmi barədə fikir ayrılığının yaranması dünya bazarında neftin qiymətinin kəskin ucuzlaşmasına səbəb olub.

Azərbaycan hökuməti dünya iqtisadiyyatında gedən prosesləri diqqət mərkəzində saxlayaraq, baş verə biləcək neqativ iqtisadi tendensiyaların ölkə iqtisadiyyatına mənfi təsirlərinin neytrallaşdırılması üçün preventiv tədbirlər planlarına malikdir. Belə ki, neftin qiymətinin kəskin ucuzlaşmasının tədiyə balansına təsirlərinin proqnoz ssenariləri hazırlanıb. Bu ssenarilərə uyğun olaraq, zərurət yarandığı hallarda müvafiq sabitləşdirici tədbirlər paketi həyata keçiriləcək.

Qeyd edək ki, dünyada baş verən neqativ iqtisadi meyllər fonunda belə Azərbaycan iqtisadiyyatı dayanıqlıq nümayiş etdirir, iqtisadiyyatımız inkişaf edir, ölkənin maliyyə imkanları genişlənir. Bu gün ölkə iqtisadiyyatı 2014-cü ildən başlanan qlobal maliyyə-iqtisadi böhranı dövründən daha dayanıqlıdır. Əvvəlki illərdə olduğu kimi, 2020-ci ildə də müsbət inkişaf dinamikası davam edir. Belə ki, yanvar-fevral aylarında qeyri-neft ÜDM-i 6,7%, ÜDM isə 2,8% artıb.

Neft bazarında və qlobal iqtisadiyyatda baş verən hadisələrə qarşı ölkə iqtisadiyyatının kifayət qədər yüksək maliyyə immuniteti və təhlükəsizlik "yastığı" mövcuddur. 2019-cu ilin yekunlarına görə, strateji valyuta ehtiyatlarımız ÜDM-in 100%-ni ötür, valyuta ehtiyatları xarici dövlət borcunu 6 dəfə üstələyir.

Valyuta bazarında sabitliyin və manatın məzənnəsinin qorunması məqsədilə zəruri tədbirlər görülməsi üçün bütün imkanlar var. Həm monetar, həm də iqtisadi siyasətin digər istiqamətləri üzrə nəzərdə tutulan tədbirlər inflyasiyanın hədəflənən səviyyədə saxlanılmasını təmin edəcək.

Eyni zamanda, dövlət büdcəsinin maliyyə dayanıqlığının daha da gücləndirilməsi üçün əlavə tədbirlər görüləcək, xərclərin optimallaşdırılması və səmərəli istifadəsi üzərində ciddi nəzarət davam etdiriləcək.

Vurğulanmalıdır ki, 2020-ci il üçün qəbul edilmiş dövlət büdcəsinin xərcləri, o cümlədən bütün sosial layihə və öhdəliklər nəzərdə tutulan qrafik üzrə tam həcmdə və vaxtında icra olunur, heç bir sosial layihənin təxirə salınması nəzərdə tutulmur.

Hökumət qlobal iqtisadiyyatda baş verən son hadisələrin ölkədə iqtisadi artıma və məşğulluğa mənfi təsirlərinin aradan qaldırılması üçün müvafiq təsir alətlərinə malikdir və zəruri olduğu halda bu alətlərdən çevik istifadə olunacaq.

Bununla yanaşı, istehlak bazarına ciddi nəzarət edilir və vəziyyətdən sui-istifadə etməklə baş verə biləcək süni qiymət artımına və əsassız qıtlığa qarşı sərt tədbirlər görüləcək.

# Belçikada Xurşidbanu Natəvanın abidəsinə qarşı vandalizm aktında erməni izi... Vaterlo polisi cinayət işi açdı

***Leyla Abdullayeva:** "Xurşidbanu Natəvanın abidəsinə qarşı vandalizmin Ermənistan Baş nazirinin Belçikaya səfəri zamanı baş verməsi diqqəti cəlb edir"*

**Martın 10-da, yerli vaxtla saat 11.00-da Belçikanın Vaterlo şəhərinin Meriyasından səfirliyə bu şəhərdə 2016-cı ildə səfirliyin dəstəyilə quraşdırılmış görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın heykəlinə qarşı dəhşətli vandalizm aktı törədilməsi barədə məlumat daxil olub.**



Bu barədə "Trend"ə Azərbaycanın Belçikadakı səfirliyindən bildirilib.

Məlumatda qeyd edilir ki, səfirliyin əməkdaşları dərhal hadisə yerinə gedərək yerli hakimiyyət orqanları ilə təmas qurublar. Vaterlo rəsmiləri tərəfindən bildirilib ki, heykəl şəhərin mühafizə edilən tarixi abidələr siyahısına daxil olduğuna görə baş verən hadisə ilə əlaqədar Vaterlo polisi tərəfindən vandalizm faktı üzrə cinayət işi açılıb. Hazırda araşdırmalar aparılır.

Azərbaycan ictimaiyyəti səfirlik tərəfindən məsələyə dair mütəmadi olaraq məlumatlandırılacaq.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Belçikanın Vaterlo şəhərində Xurşidbanu Natəvanın abidəsinə qarşı vandalizmin törədilməsi ilə bağlı KİV-in sualını cavablandırıb.

Baki-xeber.com xəbər verir ki, L.Abdullayeva vandalizmin Ermənistan Baş nazirinin Belçikaya səfəri zamanı baş verməsinin diqqəti cəlb etdiyini deyib: "Belçikanın Vaterlo şəhərində 2016-cı ildə ucaldılmış ölkəmizin görkəmli şairəsi, Qarabağ xanının qızı Xurşidbanu Natəvanın abidəsinə qarşı vandalizmin törədilməsi ilə bağlı Vaterlo polisi tərəfindən cinayət işi açılıb. Heykəl Vaterlo şəhərinin mühafizə edilən tarixi abidələri siyahısına daxildir və bu səbəbdən sözügedən hadisə polis tərəfindən araşdırılır.

Əlbəttə, bu vandalizmin Ermənistan Baş nazirinin Belçikaya səfəri zamanı baş verməsi diqqəti cəlb edir.

Qeyd etmək istərdim ki, ölkəmizin Belçika Krallığındakı Səfirliyinin əməkdaşları dərhal hadisə yerinə gedərək yerli hakimiyyət orqanları ilə təmaslar qurublar. Məsələ səfirliyimizin nəzarətində saxlanılır və araşdırmanın nəticələri ilə bağlı ictimaiyyətə məlumat veriləcək".

# Eldar Sultanov: "Aysel Ələkbərzadə feminist hərəkatının qurbanıdır"

**"İstintaq əsas fərziyyə kimi A.Ələkbərzadənin feminist hərəkatının ayrı-ayrı üzvləri tərəfindən qanunsuz aksiyanın qurbanına çevrilməsi istiqamətində aparılır".**




Bunu Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Eldar Sultanov baki-xeber.com-a açıqlamasında bildirib.

Onun sözlərinə görə, cinayət işi üzrə feministlərin fəalları Aslan Həmidli, Nurlan Cəfərov (Nurlan Libre təxəllüslü), Yusif İsayev dindiriliblər: "A.Ələkbərzadənin aksiya zamanı istifadə etdiyi provokasiya xarakterli şüarın kimlərin təşəbbüsü ilə hazırlanması, ona təqdim olunması və aksiyada nümayiş etdirilməsi xüsusatları araşdırılır və qanunazidd hərəkətlərə yol vermiş şəxslər barəsində ciddi tədbirlər görüləcək.

Aksiyanın təşkilatçıları, fəalları, eləcə də Rəbiyyə Məmmədova, Nərmin Şahmarzadə, Xədicə İsmayıl və digər şəxslərin dindirilməsi təmin olunacaq".



# Martın 8-də Bakıda feminist aksiyada abırsız şüar qaldırmış Aysel özünü yaşadığı binadan niyə atdı?

**Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin Mətbuat xidmətlərinin birgə məlumatına görə, martın 10-da, saat 05:42-də 24 yaşlı işsiz Ələkbərzadə Aysel Elşən qızı tanışı Yusif İsayevlə spirtli içki qəbul edib, kirayədə yaşadığı paytaxtın Yasamal rayonu ərazisindəki yüksək mərtəbəli binanın ikinci mərtəbəsində yerləşən mənzilin pəncərəsindən intihar məqsədilə özünü atıb.**

A.Ələkbərzadə kəllə-beyin və bir ayağının sınığı xəsarəti ilə Kliniki Tibbi Mərkəzin Reanimasiya şöbəsinə yerləşdirilib və hazırda vəziyyəti orta-ağırdır, müalicəsi üçün zəruri tədbirlər görülür.

Faktla bağlı Yasamal Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb.

Yasamal Rayon Prokurorluğunun və Polis İdarəsinin əməkdaşları tərəfindən A.Ələkbərzadənin yaşadığı evə məhkəmə-tibb ekspertinin iştirakı ilə baxış keçirilib, hadisə yerinə baxış keçirilərkən evdən 2 ədəd 1 litrlik "Kuller" markalı pivənin boş plastmas qabları, o cümlədən iş üçün əhəmiyyət kəsb edən digər maddi sübutlar götürülüb və müvafiq prosessual hərəkətlər yerinə yetirilib.

İstintaq zamanı Yusif İsayev ifadəsində həmin gün səhər saatlarında Aysel Ələkbərzadə ilə pivə qəbul etdikdən sonra içkinin qurtarması ilə əlaqədar əlavə spirtli içki almaq üçün mağazaya gedib geri qayıtdıqda A.Ələkbərzadənin özünü mənzilin pəncərəsindən atmaq istədiyini görsə də, etdiyi səylərə baxmayaraq, onun bu hərəkətinin qarşısını ala bilmədiyini deyib.

Birgə məlumatda o da qeyd olunur ki, A.Ələkbərzadə hadisədən əvvəl özünə məxsus "facebook" səhifəsində yaxın münasibətlərdə olduğu rəfiqəsi, onun həyat yoldaşı və digər tanışının adlarını çəkməklə onu özünü öldürmə həddinə çatdırmaları barədə martın 10-da saat 04:13-də məlumat paylaşıb.

İlkin istintaqla müəyyən edilib ki, A.Ələkbərzadə martın 8-də Bakı şəhərində bir qrup feminist tərəfindən təşkil olunan icazəsiz aksiyada fəal iştirak edib və aksiyada əlində tutduğu şüarda əks olunmuş fikirlərə görə bəzi sosial şəbəkə istifadəçilərinin ciddi ictimai qınağına məruz qalıb.

Hazırda cinayət işi üzrə bütün hallar tam və hərtərəfli araşdırılmaqla, bir qrup feminist tərəfindən təşkil olunmuş icazəsiz aksiyada iştirak etmiş A.Ələkbərzadəni intihara vadar edən təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək əməllərinə hüquqi qiymət verilməsi üçün zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Prezident yeni parlamentin özünəxas keyfiyyətlərini və tarixi missiyasını belə təqdim etdi... ilk qadın sədr, çoxpartiyalı...

**Martın 10-da altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası keçirilib. Prezident İlham Əliyev iclasda iştirak edib. İclası Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev açaraq deputatları təbrik edib.**



Bildirib ki, Milli Məclisin Daxili Nizamnaməsinin 2-ci maddəsinə görə, parlamentin ilk iclasını ən yaşlı deputat aparır və bu missiya deputat Ziyad Səmədzadəyə nəsib olub.

İclasa sədrlik edən Ziyad Səmədzadə altıncı çağırış Milli Məclisin ilk iclasını açıq elan edərək, altıncı çağırış Milli Məclisə seçilmiş deputatların siyahısını oxuyub.

Azərbaycan Respublikasının dövlət himni səsləndikdən sonra Prezident İlham Əliyev nitq söyləyib.

Altıncı çağırış Milli Məclisin fəaliyyətə başlaması münasibətilə təbriklərini çatdıran Prezident beşinci çağırış Milli Məclis deputatlarına səmərəli fəaliyyətlərinə görə təşəkkür edib, hazırkı Milli Məclisin də uğurla fəaliyyət göstərəcəyinə, ölkəmizdə aparılan genişmiqyaslı və çoxşaxəli islahatlara, onların dərinləşməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib. 1300-dən çox namizədin mübarizə apardığı seçkilərin uğurla keçdiyini deyən Prezident İlham Əliyev bütövlükdə seçkilərin xalqımızın iradəsini tam ifadə etdiyini bildirib.

Seçkilərdə Yeni Azərbaycan Partiyasının yerlərin əksəriyyətini əldə etdiyini deyən dövlət başçısı vurğulayıb ki, siyasi sistemin möhkəmləndirilməsi, siyasi münasibətləri sağlam zəmində inkişaf etdirmək üçün bütün partiyaların nümayəndələri Milli Məclisin və komitələrinin rəhbərliyində təmsil olunmalıdır.

Deputatların qarşısında duran vəzifələrdən danışan Prezident İlham Əliyev mövcud qanunların təkmilləşdirilməsinin və qəbul olunmuş qanunların icrasına nəzarətin əhəmiyyətinə toxunub. Vurğulayıb ki, qanunlar qəbul olunarkən iqtisadi inkişafın dərinləşdirilməsi, milli dəyərlərin qorunması, informasiya təhlükəsizliyi, sosial siyasət və gənclər siyasəti nəzərə alınmalıdır. Deputatlar seçicilərlə daim təmasda olmalı, onların problemləri ilə maraqlanmalıdırlar. Milli Məclis üzvlərinin beynəlxalq qurumlarda Azərbaycan həqiqətlərini daha geniş şəkildə təbliğ etmələrinin vacibliyindən danışan dövlət başçısı Dağlıq Qarabağ məsələsində ermənilərin tarixi saxtalaşdırmaq cəhdlərinin qarşısının alınmasında fəallığı artırmağın zəruriliyindən söhbət açıb. Prezident İlham Əliyev deyib ki, seçkilər Azərbaycanda aparılan siyasi kursa alternativ olmadığını bir daha sübut etdi. Bu gün ölkəmizdə xalq sabitlik və təhlükəsizlik şəraitində yaşayır. Son 16 ildə Azərbaycanda əldə edilən iqtisadi inkişafın dünyada təkrarı yoxdur.

Sonda Prezident İlham Əliyev ölkəmizin müstəqillik yolu ilə bundan sonra da uğurla addımlayacağını vurğulayıb.

Sonra iclasın sədri Ziyad Səmədzadə gündəliyi təqdim edib. Gündəlik təsdiqləndikdən sonra Milli Məclis Sədrinin seçilməsi məsələsi müzakirə olunub və Yeni Azərbaycan Partiyasından deputat Sahibə Qafarova 116 səs lehinə olmaqla, Sahibə Qafarova Milli Məclisin sədri seçilib.

Sədrin birinci müavini vəzifəsinə deputat Əli Hüseynli, müavin vəzifələrinə deputatlar Adil Əliyev və Fəzail İbrahimli seçilib.

Daha sonra Milli Məclisin komitə sədrliyinə namizədliyi irəli sürülən deputatların adlarını oxunub və səsə qoyularaq qəbul edilib.

Beləliklə, Əli Hüseynli Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, Ziyafət Əsgərov Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, Tahir Mirkişili İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin, Sadiq Qurbanov Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin, Tahir Rzayev Aqrar siyasət komitəsinin, Musa Quliyev Əmək və sosial siyasət komitəsinin, Siyavuş Novruzov Regional məsələlər komitəsinin, Bəxtiyar Əliyev Elm və təhsil komitəsinin, Qənirə Paşayeva Mədəniyyət komitəsinin, Zahid Oruc İnsan hüquqları komitəsinin, Səməd Seyidov Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin, Əhliman Əmiraslanov Səhiyyə komitəsinin, Hicran Hüseynova Ailə, qadın və uşaq məsələləri komitəsinin, Fəzail İbrahimli İctimai birliklər və dini qurumlar komitəsinin, Adil Əliyev Gənclər və idman komitəsinin sədrləri təsdiq edilib.

İclasda komitə sədrlərinin müavinləri də təsdiq olunub.

Bununla da altıncı çağırış Milli Məclisin birinci iclası başa çatıb.

# Azərbaycan koronavirusla mübarizədə yeni zəruri sərt qərarlar verir...

**Elşən Həsənov:** *"Belə hallarda dövlətlə vətəndaşın birliyi daha sıx olmalıdır"*

**Azərbaycanın Nazirlər Kabineti yanında Operativ qərargah açıqlama yayıb. Açıqlamada deyilir ki, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) son günlər koronavirus xəstəliyinə yoluxma hallarının artmasını, virusun çoğrafiyasının genişlənməsini nəzərə alaraq, dövlətlər tərəfindən müvafiq preventiv tədbirlərin gücləndirilməsi, eləcə də kütləvi tədbirlərin təxirə salınması təşəbbüsü ilə çıxış edib:**

"Virusun dünya üzrə əhatə dairəsi genişləndiyindən, ölkəmizdə də müvafiq profilaktik tədbirlər gücləndirilib. Bununla əlaqədar bildiririk ki, Bakı şəhərində və respublikanın müxtəlif regionlarında mart ayında keçirilməli olan ənənəvi Novruz şənlikləri ləğv edilir. Operativ qərargah mütəxəssislərlə aparılan məsləhətləşmələr və Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrindən irəli gələrək ayrı-ayrı qurumları yaxın müddətdə hər hansı kütləvi tədbir keçirməməyə, artıq təyin olunan tədbirlərin tarixini isə dəyişdirməyə çağırır. Həmçinin, adamların sıx toplaşdığı məkanlarda virusa yoluxma risqi yüksək olduğundan, qarşıdakı aylarda toy və bu cür məclislərin təxirə salınması, yas mərasimlərinin isə kütləvi keçirilməməsi tövsiyə edilir.

Virusun geniş yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan hökuməti tərəfindən aparılan tədbirlərə dəstək olaraq vətəndaşlarımızı bir daha adamların sıx toplaşdığı yerlərdən, qapalı məkanlardan uzaq durmağa, xarici ölkələrə, eyni zamanda, risq qrupu ölkələrinə səfərlərini təxirə salmağa, vacib səfərlər zamanı isə qoruyucu tədbirlərə maksimum riayət etməyə (qoruyucu tibbi maska, xüsusi qoruyucu eynək, dezinfeksiyaedici vasitələrdən istifadə və s.) çağırırıq".

Göründüyü kimi, hökumət bu xəstəliyin yayılmaması üçün sərt tədbirlər həyata keçirir. Təəssüf ki, bəzi vətəndaşlarımız bunun ciddiliyini dərk etmək istəmirlər. Məsələn, biz bu halı təhsil müəssisələrində dərsin ləğv olunması ilə bağlı verilən qərardan sonra müşahidə etmişik. Bəzi valideynlər bunu "yaxşı" fürsət kimi dəyərləndirib, övladlarını götürüb alış-veriş və əyləncə mərkəzlərinə gedirlər. Proseslərin gedişi və dövlət səviyyəsində verilən qərarlar bir daha sübut edir ki, hökumətin tövsiyələrinə ciddi yanaşıb, əməl etmək lazımdır. Bununla bağlı əlavə hansı tədiblər görülməlidir və tövsiyələrə əməl olunması üçün işin necə aparılması zəruridir?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki,




bu məsələdə məsuliyyəti yalnız dövlətin üzərinə atmaq olmaz: "Dünyanın hər bir yerində bu virusla mübarizə aparılır. Azərbaycan da buna maksimum çalışır. Hər bir ölkə istəyir ki, bəla ondan yan keçsin. Bizim məsələyə bir qədər də ciddi yanaşmamız əbəs deyil. Çünki qonşumuz olan İranda virus geniş yayılıb. Qoruyucu tədbirləri bir qədər gec tətbiq edəndə biz hökuməti qınayırıq. Hökumətin atdığı addımları isə sanki boykot edirik. Məktəbləri niyə bağlayıblar? Səbəbi bəllidir, virusun maksimum yayılmasını istəmirlər. Hökumət nə etməlidir? Polislərə tapşırıq verməlidir ki, küçələrdə uşaqla gəzintiyə çıxan valideynləri saxlasın? Bu məsələdə məsuliyyət həm də valideynlərin öz üzərinə düşməlidir. Görürük ki, yaradılan Qərargah mühüm dövlət tədbirlərini belə təxirə salıb. Ancaq vətəndaşlara aid hissədə tövsiyə edir ki, toyları təxirə salsınlar, yasları izdihamlı keçirməsinlər. İş adamları da məsuliyyətini yaxşı dərk etməlidirlər. Qazanc naminə belə tövsiyələri qulaqardına vurmamalıdırlar. Vətəndaş toy etmək istəsə belə, buna icazə verilməməlidir. Əgər verilən tövsiyələrə vətəndaşlar tərəfindən ciddi əməl olunmasa, bir qədər inzibati qadağaları da tətbiq etmək mümkündür. Biz tövsiyədən nəticə çıxarmalıyıq. Hökumət bir qədər sərt müdaxiləni vətəndaş haqlarına görə etmirsə, bu o demək deyil ki, hansısa işbaz bundan pul qazanmalıdır. Belə bir atalar misalı var: "El gücü, sel gücü". Belə hallarda dövlətlə vətəndaşın birliyi daha sıx olmalıdır".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycanda ənənəvi Novruz şənlikləri ləğv edilir

*Karantin müddətini başa vuran 312 nəfər sərbəst buraxıldı...*

**Ümumdünya Səhiyyə Təşkilatı son günlərdə koronavirus xəstəliyinə yoluxma hallarının artmasını, virusun çoğrafiyasının genişlənməsini nəzərə alaraq dövlətlər tərəfindən müvafiq preventiv tədbirlərin gücləndirilməsi, eləcə də kütləvi tədbirlərin təxirə salınması təşəbbüsü ilə çıxış edib.**

Nazirlər Kabineti yanında operativ qərargahdan baki-xeber.com-a verilən məlumata görə, virusun dünya üzrə əhatə dairəsi genişləndiyindən, ölkəmizdə də müvafiq profilaktik tədbirlər gücləndirilib.

"Bununla əlaqədar bildiririk ki, Bakı şəhərində və respublikanın müxtəlif regionlarında mart ayında keçirilməli olan ənənəvi Novruz şənlikləri ləğv edilir.

Operativ qərargah mütəxəssislərlə aparılan məsləhətləşmələr və Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrindən irəli gələrək, ayrı-ayrı qurumları yaxın müddətdə hər hansı kütləvi tədbir keçirməməyə, artıq təyin olunan tədbirlərin tarixini isə dəyişməyə çağırır.

Həmçinin, adamların sıx toplaşdığı məkanlarda virusa yoluxma risqi yüksək olduğundan, qarşıdakı aylarda toy və bu cür məclislərin təxirə salınması, yas mərasimlərinin isə kütləvi keçirilməməsi tövsiyə edilir.

Virusun geniş yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan hökuməti tərəfindən aparılan tədbirlərə dəstək olaraq vətəndaşlarımızı bir daha adamların sıx toplaşdığı yerlərdən, qapalı məkanlardan uzaq durmağa, xarici ölkələrə, eyni zamanda risq qrupu ölkələrinə səfərlərini təxirə salmağa, vacib səfərlər zamanı isə qoruyucu tədbirlərə maksimum riayət etməyə (qoruyucu tibbi maska, xüsusi qoruyucu eynək, dezinfeksiyaedici vasitələrdən istifadə və s.) çağırırıq" - operativ qərargahın açıqlamasında deyilir.

Bundan başqa, Nazirlər Kabineti yanında Operativ qərargahdan Azərbaycan Respublikasında koronavirus (COVİD - 19) infeksiyasının yayılmasının qarşısının alınması və infeksiyaya yoluxma hallarının müəyyənləşdirilməsi məqsədilə müxtəlif xəstəxanalarda yaradılmış karantin zonalarına daxil olan şəxslərin müayinəsinin davam etdirildiyi bildirilib.



Qeyd edilir ki, Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə uyğun olaraq, karantinə alınan şəxslər müvafiq müayinədən keçirilir, o cümlədən, onlardan laborator analizlər götürülür, səhhətləri nəzarət altında saxlanılır. İnfeksiyaya yoluxma faktı təsdiq olunan şəxslər dərhal xüsusi rejimli xəstəxanalara köçürülür, onların müalicəsi ilə bağlı müvafiq tədbirlər görülür.

Martın 10-na olan məlumata görə, müayinə və laborator analizlər vasitəsilə infeksiyaya yoluxma faktı təsdiq olunmayan və səhhəti şübhə doğurmayan 312 nəfər karantin müddətini başa vuraraq sərbəst buraxılıb.

**Hazırda karantində olan digər şəxslərin müayinəsi davam etdirilir.**

# Ermənilərin Qazaxda intensiv sərhəd pozuculuğunun kökünə dair daha bir versiya - Azərbaycanı yenidən Milli Ordunu sərhədlərə qaytarmağa vadar etmək...

**Son zamanlar Azərbaycanın Ermənistanla dövlət sərhədinin Qazax rayonu istiqamətində ermənilər tərəfindən tez-tez atəkəs pozulur. Ermənistan ərazisində dislokasiya olunan erməni hərbi birləşmələri müəyyən zamanlarda mövqelərimizi atəşə tuturlar. Azərbaycan Dövlət Sərhəd Xidmətinin qoruduğu sərhəd-döyüş postlarında atəşkəs rejimi daimi olaraq erməni hərbçiləri tərəfindən iriçaplı pulemyotlar və müxtəlif kalibrli snayper tüfəngləri ilə pozulur.**

*"...təxribatların miqyasını genişləndirməyə səy göstərirlər"*

***İbrahim Rüstəmli:** "Erməni tərəfi hesab edir ki, Sərhəd Qoşunlarının döyüş təcrübəsi yoxdur"*



Erməni tərəfi Azərbaycan sərhədçilərinə qarşı həyata keçirməyə çalışdığı kəşfiyyat, kəşfiyyat-diversiya, silahlı sərhəd pozuculuğu hallarıı ilə yaratdığı bu gərginlliyin fonunda beynəlxalq aləmə rəsmi Bakını nüfuzdan salmağa yönəlmiş informasiyalar yayır. Qarabağ müharibəsinin danışıqlar yolu ilə həllində süni çətinliklər formalaşdırır və dünya səviyyəli tribunalarda Azərbaycan əleyhinə kampaniya aparırlar. Eyni zamanda, sərhəddə xidmət aparan Dövlət Sərhəd Xidmətinin gözdən salınmasına yönəlik fəaliyyət göstərirlər.

O da məlumdur ki, ötən ildən Ağstafa və Qazax rayonlarının Ermənistanla olan sərhədini Dövlət Sərhəd Xidmətinin əsgərləri qoruyurlar. Ermənistanın məhz bu istiqamətdə intensiv təxribatlara əl atması təsadüfi deyil. Ehtimal ki, Ermənistan bununla yenidən həmin sərhədin Azərbaycan Milli Ordusu tərəfindən qorunmasını istəyir. Yəni DSX məcbur olsun sərhədi Silahlı Qüvvələrə təhvil versin. O baxımdan güman etmək olarmı ki, ermənilərin təxribatının arxasında bu niyyət dayanır?

Məsələyə münasibət bildirən ehtiyatda olan polkovnik-leytenant, hərbi ekspert İbrahim Rüstəmlinin sözlərinə görə, Qazax istiqamətində təxribatların intensiv artmasında bir sıra məqsədlər ola bilər: "Zaman-zaman Ermənistanda hakimiyyətdə olan qüvvələr Qarabağ kartından öz məqsədləri üçün istifadə ediblər. İndi də Paşinyan bu məqsədlə öz niyyətlərini həyata keçirməyə çalışır. Qazax istiqamətində təxribatların artmasının bir səbəbi həmin ərazinin relyefi ilə bağlıdır. Məsələ ondadır ki, mövcud relyef ermənilərə bir sıra kəndləri atəş altında saxlamağa imkan verir. Ermənilər də bu imkandan maksimum istifadə etməyə çalışırlar. Digər tərəfdən, erməni tərəfi hesab edir ki, Sərhəd Qoşunlarının döyüş təcrübəsi yoxdur. Eyni zamanda, Sərhəd Qoşunlarında xidmət edən zabitlərin də birbaşa cəbhə xəttində döyüş təcrübəsi yoxdur. Ona görə də Qazax istiqamətində təxribatların miqyasını genişləndirməyə səy göstərirlər. Ermənilər istəyirlər ki, yenidən həmin sərhədləri Müdafiə Nazirliyinin qoşunları qorusun. Baxmayaraq ki, Müdafiə Nazirliyi tərəfindən qorunan ərazilərə müdaxilə etmək, təxribat törətmək çətindir. Ancaq nəzərə almaq lazımdır ki, DSX-nin döyüş təcrübəsi az olsa da, ən müasir hərbi texniki vasitələrlə təmin olunub. Çox yüksək səviyyədə idarə olunur və nizam-intizam üstün səviyyədədir. Ancaq praktika və təcrübə deyilən bir şeylər var. Bu baxımdan hesab edirəm ki, DSX-nin qoruduğu ərazilərdə orduda döyüş təcrübəsi olan zabit və bölük komandirlərini yerləşdirmək lazımdır. Çünki onlar müəyyən döyüş praktikasına malikdirlər. Zamanla onsuz da DSX-nin döyüş təcrübəsi artacaq. Bütün hallarda, biz elə etməliyik ki, ermənilər hər gün itki versinlər. O zaman Qarabağla bağlı onların təsəvvürləri deformasiyaya uğrayacaq və şüurlarında real vəziyyətlə bağlı rəy formalaşacaq".

***Vidadi ORDAHALLI***

# Erməni mediasının Azərbaycanda koronavirus ajiotajı yaratmaq cəhdləri...

**Çində 2019-cu ilin sonlarında başlayan koronavirus xəstəliyinin son növü həyatlara son qoymağa davam edir və bütün dünyada sürətlə yayılır. Xəstəlik halları Çindən başqa Cənubi Koreya, Tayvan, Yaponiya, Sinqapur, Tailand, İran, İtaliya, ABŞ və digər ölkələrdə aşkarlanıb.**



***Fikrət Sadıqov:** "Ermənilər bir sıra məqsədlərdən ötrü Azərbaycanla bağlı bu cür yalan informasiya yayırlar"*

Bununla belə, koronavirus Ermənistanda da qeydə alınıb və bu, ölkədə ciddi dəyişikliklər və yenidən tənzimləmələrin gözlənildiyi bir dövrdə qeydə alınıb. Ermənistanda koronavirusun yayılması xüsusi təşviş doğurur. Bu təşvişin güclü olmasına səbəb isə Paşinyan hakimiyyətinin qabaqlayıcı tədbirlər görə bilməməsidir. Erməni mətbuatı yazır ki, ölkədəki hazırkı durum hakimiyyətin koronavirusla mübarizəyə tamamilə hazır olmadığını göstərir. Belə ki, apteklərdə qoruyucu maskalar, gigiyenik vasitələr tapılmır. Məlum olub ki, Ermənistan hakimiyyəti koronavirusla bağlı mübarizədə, ümumiyyətlə, heç nə edə bilmir. Prosesə nəzər salanda görünən budur ki, ölkə böhran vəziyyətinə, önləyici tədbirlər görməyə hazırlıqlı deyil.

Bütün bunlara baxmayaraq, erməni mediası Azərbaycanla bağlı yalan xarakterli informasiyalar yaymaqdadır. Erməni mediası iddia edir ki, guya Azərbaycanda koronavirusa yoluxanların sayı 11 nəfəri keçib. Hətta onu da uydururlar ki, guya sözügedən virusdan Azərbaycanda ölənlər var, amma ölənlərin sayı gizlədilir. Bir sözlə, Azərbaycanla bağlı ağlagəlməz yalanlar uydururlar. Aydın məsələdir ki, erməni mediasının koronavirusla bağlı yazdıqları yalandır. Ancaq maraqlıdır, Azərbaycanla bağlı belə yalan məlumatlar yaymaqla nə məqsəd güdürlər?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, ermənilər bir sıra

*"İnformasiya müharibəsi prosesində Ermənistan tərəfi ən xoşagəlməz və riyakar üsullardan istifadə edir"*

məqsədlərdən ötrü Azərbaycanla bağlı bu cür yalan informasiya yayırlar: "Biz bir şeyi nəzərə almalıyıq ki, Azərbaycan təkcə cəbhədə Ermənistanla döyüşmür. Bununla bərabər, Azərbaycanla Ermənistan arasında informasiya müharibəsi gedir. Sözügedən informasiya müharibəsi prosesində Ermənistan tərəfi ən xoşagəlməz və riyakar üsullardan istifadə edir. O da ondan ibarətdir ki, Azərbaycana yönəlik qaralama kampaniyası aparırlar. Onlar çox istərdilər ki, Azərbaycanda koronavirus geniş miqyasda yayılsın. Bu onların ən böyük arzusudur. Ancaq onlar nəzərə almaq istəmirlər ki, Azərbaycan bütün önləyici tədbirləri görür. Azərbaycanda bu sahədə vəziyyət tamam başqadır.

Yəni bütün proseslər nəzarət altındadır. Ölkə gücləndirilmiş rejimdə işləyir və müvafiq olaraq bütün qabaqlayıcı tədbirlər görülür. Sadəcə olaraq Ermənistan o məqsədlə Azərbaycanı hədəfə götürüb ki, öz daxili auditoriyasına yanlış məlumat çatdırsın. Ona görə də ölkəmizlə bağlı belə çirkin xarakterli məlumatlar yayılır. Onlar belə narahatdırlarsa, o zaman öz ölkələrində karantin tədbirləri görsünlər. Çünki İranla Ermənistanın əlaqələri daha genişdir. Ermənistanda əhalinin kütləvi şəkildə koronavirusa yoluxma ehtimalı daha böyükdür, nəinki Azərbaycanın".

***Vidadi ORDAHALLI***

**8 mart tarixində bir qrup qadının Bakının mərkəzində keçirdiyi aksiya cəmiyyətin bütün təbəqələri tərəfindən sərt qınandı. Hətta müxalif mövqedən çıxış edən siyasilər belə həmin aksiyanın milli-mənəvi dəyərlərimizlə ziddiyyət təşkil etdiyini bildirdilər.**



# Milli dəyərlərə "sadiq" AXCP - ailə dəyərlərimizi puç edən "qadınlar" aksiyası niyə dəstəkləndi...

***Samir Adıgözəlli:** "Özünü Elçibəy xəttinin davamçısı sayan, milli platformadan çıxış etdiyini bəyan edən bir partiya necə bu əxlaqsızlığa dəstək ifadə edə bilər?*

Cəmiyyətdə fəal mövqeyi ilə seçilən əksər xanımlar isə həmin aksiyadakı şüarların qadın fəallığına heç bir aidiyyətinin olmadığını qeyd etməklə yanaşı, tədbirdə əxlaqsızlığın təbliğ edildiyi qənaətini bölüşdülər.

Ancaq maraqlıdır ki, daim milli mövqedən çıxış etdiyinə dair rəy yaratmağa çalışan AXCP sədri Əli Kərimli elə həmin gün feministlərin aksiyasını müdafiə edən status paylaşıb. O, "8 MARŞ - Bizimdir Hürr Küçələr" yürüşünə polis müdaxiləsini, xeyli sayda aksiya iştirakçısına zor tətbiq edilməsini qəti şəkildə pisləyib. Yazıb: "Azərbaycan hakimiyyətini Avropa Şurasının Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında İstanbul Konvensiyasına qoşulmağa çağırıram. Xatırladım ki, Konvensiyanı Avropa Şurasına üzv olan 47 ölkədən 45-i imzalayıb. Yalnız Azərbaycan və Rusiya hələ də Konvensiyanı imzalamayıb".

AXCP sədrinin bu dəstəyi sosial şəbəkə istifadəçiləri, hətta onun bir sıra tərəfdarları tərəfindən sərt etirazla qarşılanıb. Onun statusuna şərh yazanlar partiya sədrinin feministlərə sığındığını bildirib və ağır ifadələrdən istifadə ediblər.

Bundan sonra Ə.Kərimli yazdığı statusa yenidən şərh yazıb. Aksiyadakı şüarları dəstəkləmədiyini qeyd edib: "Çox təəssüf etdim ki, bugünkü aksiyada bir neçə etikadan kənar, ictimai əxlaqa qarşı şüarlar da qaldırılıb. Təbii ki, mən həmin qeyri-etik şüarları nəinki dəstəkləmirəm, belə şüarları ictimai əxlaqa qarşı sayıram, zərərli hesab edirəm. Statusda hansı vətəndaş hüquqlarına dəstək verdiyim, nəyə etiraz etdiyim aydın yazılıb. Status aksiya və zorakılıq haqdadır, orada qaldırılmış ayrı-ayrı şüarlar barədə deyil".

Göründüyü kimi, Əli Kərimli kəskin ictimai qınağa tuş gəldiyi üçün mövqeyini yumşaltmağa çalışıb. Ancaq yenə də Azərbaycan qadını adının arxasına sığınaraq əxlaqsızlığı təbliğ edənlərin hərəkətlərini pisləməyib. Onun bu addımını necə dəyərləndirmək olar?

İctimai-Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin (İSBAM) sədri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, həmin aksiyanın keçirilməsi bir rəzalət idi: "Əvvəla bu suala cavab tapmaq lazımdır: Azərbaycanda feminizmə ehtiyac varmı? Təbii ki, yox. Çünki Azərbaycan cəmiyyətində hər zaman qadına hörmət və rəğbət olub. Bu gün də həmin ehtiram saxlanır. Bu gün Azərbaycan parlamentinə qadın sədr seçilirsə, hansı qadın haqlarının sıxışdırılmasından danışmaq olar? Məlum aksiyanın tələblərindən göründü ki, məqsəd əxlaqsız həyat tərzini cəmiyyətə sıramaq olub. Görün vəziyyət nə yerə çatıb ki, əxlaqsız şüarı qaldıran xanım özünə qəsd edib. Buradan maraqlı nəticə çıxır. Deməli, həmin cavan qız nə etdiyinin fərqində olmayıb, feminizmin nə olduğunu dərk etməyib, sadəcə, təsir altına düşüb və sonrakı kütləvi ictimai qınaq onu belə bir addımı atmağa vadar edib. Deməli, konkret nəticə budur ki, Azərbaycan cəmiyyəti öz ailə dəyərlərinə, milli-mənəvi köklərinə olan yad basqılarla mübarizədə geri çəkilmir. Əksinə, daha sərt mübarizə aparır. Ə.Kərimlinin addımı isə biabırçılıqdır. Özünü Elçibəy xəttinin davamçısı sayan, milli platformadan çıxış etdiyini bəyan edən bir partiya necə bu əxlaqsızlığa dəstək ifadə edə bilər? Mən fikir verdim, elə öz partiyasının üzvləri belə onun tənqidinə qalxdılar. Ə.Kərimli, birmənalı olaraq, həmin aksiyaya dəstək verib. Orada heç bir polis zorakılığı olmadı. Əksinə, aqressiv ovqatlı aksiya iştirakçıları polisi təhqir etməklə məşğul idilər. Biz bütün bunları çəkilən kadrlardan gördük. Ə.Kərimli bu addımı ilə yalnız özünü deyil, bütün partiya üzvlərinin üzərinə pis ləkə saldı. Onun bu addımı kifayət edir ki, AXCP sədrliyindən istefası tələb olunsun. Ə.Kərimli İstanbul Konvensiyasının imzalanmasını tələb edir. Qeyd edim ki, həmin sənədi Ermənistan parlamenti ratifikasiya etməyib. Düşmən ölkənin qəbul etmədiyi bir sənədin qəbulu hökumətdən niyə tələb edilməlidir?"

***Məhəmmədəli QƏRİBLİ***

---

**"Sərhədsiz reportyorlar" mətbuatı müdafiə təşkilatı Bakıda feministlərin bazar günü aksiyasını işıqlandıran jurnalistlərə qarşı polis zorakılığını pisləyib. Təşkilat iddia edir ki, guya sözügedən aksiya zamanı 8 jurnalist polis zorakılığına məruz qalıb.**




# "Sərhədsiz reportyorlar" Bakıda 8 mart "rəzilliyindən" şou düzəltdi, yunan sərhədində günahsız qaçqınların öldürülməsinə susdu...

***Vüqar Rəhimzadə:** "Baş verən hadisələr "Sərhədsiz reportyorlar" təşkilatı başda olmaqla, digər təşkilatların da riyakarlığını göstərir"*

Guya bazar günü Bakıda feministlərin keçirdiyi aksiya dağıdılarkən polis növbəti dəfə jurnalistlərə qarşı kobud güc tətbiq edib. "Meydan TV"nin əməkdaşları bu səbəbdən ciddi xəsarət alıb və s. Jurnalistlər bir neçə saat Səbayıl rayon 39-cu Polis Bölməsində saxlanıb, onlardan çəkdiklərini silməyi tələb ediblər. Guya polis jurnalistlərin videoçəkiliş aparmasına mane olub. Jurnalistlərin bir hissəsi aksiyadan sonra 39-cu Polis Bölməsinin qarşısında saxlanan aksiya iştirakçılarının azad edilməsini gözləyərkən binadan uzaqlaşdırıldıqları zaman xəsarət alıb. Guya jurnalistləri məcburi şəkildə metroya aparıb qatara mindiriblər və növbəti stansiyaya qədər müşayiət ediblər. Göründüyü kimi, bütün bunların heç bir əsası yoxdur. Çünki deyilənlər reallığı əks etdirmir.

O da məlumdur ki, neçə gündür Türkiyə Avropa ilə sərhədləri açıb. Səbəb odur ki, Suriyada məlum hadisələrlə əlaqədar Türkiyədə qaçqınların sayı kəskin şəkildə artıb. Türkiyə də həmin qaçqınların bir hissəsinin Avropaya keçməsinə şərait yaradır. Ancaq Türkiyə ilə həmsərhəd olan Yunanıstan qaçqınları qəbul etmək istəməyərək onlara qarşı zor tətbiq edir. İki nəfər yunan polisinin açdığı atəş nəticəsində qətlə yetirilib. Ancaq başda "Sərhədsiz reportyorlar" təşkilatı olmaqla, digər qurumlar da bunu sükutla qarşılayırlar. Baş verənləri görməzdən gəlirlər.

Məsələyə münasibət bildirən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, baş verən hadisələr

*"Yunanıstan dünyanın gözü qarşısında Suriyadan olan qaçqınlara divan tutur"*

"Sərhədsiz reportyorlar" təşkilatı başda olmaqla, digər təşkilatların da riyakarlığını göstərir: "Sözügedən təşkilatlar anti-Azərbaycan qüvvələrin əlində alət vasitəsi olaraq ölkəmizə qarşı aqressiv mövqe nümayiş etdirirlər. Feministlərin jurnalistikaya nə dəxli var? Məgər jurnalistlər aksiyanı işıqlandırarkən zorakılığa məruz qalıblar? Bütün bunların hamısı ağ yalandır. Hesab edirəm ki, bunlar yenə ikili standartlardan çıxış edərək məsələyə yanaşırlar. Bunlar yalnız erməni lobbisinin sifarişlərini yerinə yetirirlər. Artıq neçə gündür Türkiyənin Yunanıstan sərhədində vəhşət yaşanır.

Yunanıstan dünyanın gözü qarşısında Suriyadan olan qaçqınlara divan tutur. Bu zaman haqlı olaraq sual çıxır: hardadır Avropanın insan haqlarından danışan təşkilatları? Azərbaycanda belə hal yaşansaydı, o zaman bütün beynəlxalq təşkilatlar üstümüzə gələrdilər. Ancaq Yunanıstanın törətdiyi əməlləri görməzdən gəlirlər. Sözügedən təşkilatlar bu hərəkətləri ilə simasızlıqlarını göstərirlər. Buna ancaq belə ad vermək olar. Buna başqa ad vermək mümkün deyil. Çünki sözügedən təşkilatlar ədalətdən, obyektivlikdən uzaqdırlar".

***Vidadi ORDAHALLI***

# Ermənistan yeni dollar eyforiyasında - "SSRİ belə dağılmışdı, bu dəfə Rusiya dağılacaq" - daşnakların yeni qəsbkarlıq planları varmı...

## *Səyyar Əliyev: "Bundan sonra nə olsa, hansı proses başlansa belə, ermənilərin ərazi ələ keçirmək şansları olmayacaq"*

**Ermənistan KİV-i neftin qiymətinin kəskin ucuzlaşması ilə bağlı maraqlı, lakin özlərinə sərf edən tərzdə paralellər aparıb. Onlar belə qənaətə gəlirlər ki, indiki situasiya SSRİ-nin dağılması dönəmini xatırladır. Qeyd olunur ki, Rusiyanın dövlət büdcəsində neftin barrelinin qiyməti 40 dollar həcmində müəyyənləşib.**



SSRİ dönəmi ilə bağlı aparılan müqayisədə bildirilir ki, 1970-ci ildə neftin qiyməti hər barrel üçün 1,8 dollar idisə, 1980-ci ildə bu rəqəm 36,83 dollar təşkil etdi. SSRİ 1980-ci ildə Əfqanıstana girəndə neftin qiyməti yenidən enməyə başladı və 1982-1985-ci illərdə 30 dollar təşkil etdi: "1986-cı ildə Səudiyyə Ərəbistanı ABŞ-la birlikdə SSRİ-ni cəzalandırmaq planını həyata keçirdi. Nəticədə neftin barreli 12 dollara endi. Bundan 5 il sonra isə SSRİ süqut etdi". Erməni KİV-i bu müqayisəni edib sonda belə qənaətə gəlir ki, Rusiyanı da SSRİ-nin aqibəti gözləyə bilər. Ehtimal olunur ki, Rusiyanın enişə gedən neft qiymətləri fonunda davranışları keçmiş SSRİ-ni xatırladır və böyük ehtimalla bu da Rusiyanın çöküşü ilə nəticələnəcək.

Bəllidir ki, ermənilər SSRİ-nin süqutunu əvvəlcədən planlayıb və həmin vəziyyətə uyğun məkrli planları olub. Sonradan məlum oldu ki, SSRİ-nin çökməsindən erməni lobbisi məharətlə istifadə edərək Dağlıq Qarabağda separatçılığı alovlandırdı və nəticədə Azərbaycanın 20 faiz torpağı işğal edildi. Təbii ki, onların indiki istəkləri reallaşan deyil. Çünki nə Rusiyanın parçalanması real görünür, nə də ermənilərin Azərbaycandan torpaq ala bilmə ehtimalları. Belə olan təqdirdə, daşnakların yaranmış neft eyforiyasında yeni ərazilər zəbt etməklə bağlı hansısa yeni planları ola bilərmi?

Tarix üzrə fəlsəfə doktoru Səyyar Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ermənilərin məkrli planları heç vaxt ara verməyib: "Bilirsiniz ki, onlar hazırda yaşadıqları ərazinin aboriqen xalqı sayılmır. Vaxtilə Yaxın Şərqdən qovula-qovula gəlib Azərbaycanın tarixi ərazilərində məskən salıblar. Sonra isə yersiz ərazi iddiaları əsasında, havadarlarının dəstəyilə özlərinə dövlət qurublar. SSRİ-nin dağılması prosesində onların əməyindən yaxşı istifadə olundu. Dağlıq Qarabağda separatçılığın əsası da vaxtilə Qorbaçovun müşaviri olmuş Aqanbekyanın Fransanın "Humanite" qəzetində dərc etdiyi məqaləsi ilə qoyuldu. Araşdırmalar göstərir ki, SSRİ-nin dağıdılması prosesində Dağlıq Qarabağda separatçılığın baş qaldırması da planın tərkib komponenti olub. Bəli, məhz həmin prosesdən yararlanaraq onlar bugünkü vəziyyəti yarada bildilər. SSRİ-nin dağılmasından maksimum uduşla çıxdılar.

Ermənistan yeganə ölkədir ki, bütün qonşularına qarşı ərazi iddiası ilə çıxış edir. Gürcüstanda separatizmi açıq dəstəkləyir. İstənilən vaxt Cavaxetiyada ermənilər Dağlıq Qarabağdakı vəziyyəti təkrar edə bilərlər. Türkiyəyə qarşı iddiaları hətta dövlət atributları vasitəsilə bəyan edirlər. İrana və Azərbaycana qarşı səslənən ərazi iddiaları da mövcuddur. Daşnakların "Dənizdən dənizə Ermənistan" ideyası onların mübarizə idealına çevrilib. Həmin ideologiyada yalnız qonşu ölkələrin torpaqlarına deyil, eyni zamanda, başqa dövlətlərə də ərazi iddiaları irəli sürülür. Rusiyanın Qafqaza yaxın əyalətlərini ermənilər özlərininki hesab edirlər. Görün nə qədər azğınlaşıblar ki, xarici işlər nazirləri səviyyəsində Qüdsün taleyinin müəyyənləşməsində onların da söz sahibi olduqlarını bəyan etdilər. Ancaq bu iddialara baxmayaraq, Ermənistan hazırda çox ağır dönəmini yaşayır. Yürütdüyü işğalçı siyasət onu diz çökdürüb. Vəziyyət o həddə çatıb ki, Ermənistan öz ərazisini dolanmaq üçün kiməsə icarəyə verməyə hazır vəziyyətdə olduğu təsirini bağışlayır. Bundan sonra nə olsa, hansı proses başlansa belə, ermənilərin ərazi ələ keçirmək şansları olmayacaq. Artıq qəsb etdiklərini qaytarmağın zamanı çatıb".

***Məhəmmədəli QƏRİBLİ***

# Moskvada ermənilərin kino çəkilişi ilə daha bir uğursuz Qarabağ kampaniyası...

## *Əli Orucov: "Svetlana Kulçitskayanın hazırladığı "Qayıdış" adlı sənədli film növbəti erməni təxribatı sayılmalıdır"*

**Ermənilər Azərbaycana yönəlik növbəti təxribata hazırlaşırlar. Belə ki, Rusiyanın paytaxtı Moskvada Dağlıq Qarabağda 90-cı illərdə gedən müharibədən bəhs edən, rusiyalı telejurnalist Svetlana Kulçitskayanın "Qayıdış" adlı sənədli filminin təqdimatına hazırlıq görürlər.**



Martın 11-də Vasilyevskaya küçəsində yerləşən kino evində keçirilməsi nəzərdə tutulan sənədli filmdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi təhrif olunub. Azərbaycan tərəfi aqressor xalq kimi təqdim olunub. Hansı ki, bu, hadisələrin saxtalaşdırılması deməkdir. Çünki sözügedən münaqişə nəticəsində Azərbaycan ərazisinin 20 faizi erməni silahlıları tərəfindən işğal olunub. Nəticədə çoxlu sayda dinc azərbaycanlı həlak olub, milyondan çox insan evsiz-eşiksiz qalıb.

Məlumat üçün qeyd edək ki, Dağlıq Qarabağda 90-cı illərdə gedən müharibədən bəhs edən, rusiyalı telejurnalist Svetlana Kulçitskayanın hazırladığı "Qayıdış" adlı sənədli film Ermənistan Respublikasının maliyyə dəstəyilə çəkilib. Filmdə tarixi Azərbaycan əraziləri Şərqi Ermənistan adı altında göstərilir. Dağlıq Qarabağda ermənilərin 90-cı illərdə müharibə zamanı ordusuz, blokada şəraitində öz "müstəqilliyi" və "azadlığı" uğrunda mübarizə aparmasından bəhs edilir.

Xatırladaq ki, bu il yanvarın 26-da da Rusiyadakı erməni diasporu Moskvadakı "Pobeda" kinoteatrında Azərbaycanın ərazi bütövlüyünün əleyhinə olan "Sehrli ölkə - Aran" adlı filmi nümayiş etdirməyə cəhd edib. Lakin Moskvadakı Azərbaycan icmasının Moskva hökumətinə müraciətindən sonra filmin nümayişi təxirə salınıb. Bu dəfə də Azərbaycan icması bənzər müraciətlə çıxış edib. Bütövlükdə, ermənilərin növbəti təxribatının qarşısını almaq üçün hansı işlər görülməlidir?

*"Fikrimcə, Moskva rəhbərliyi və müvafiq qurumlar provokasiyanın..."*

Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, ermənilər hər fürsətdə öz məkrli niyyətlərini həyata keçirməyə, canfəşanlıq yaratmağa və özlərini məsum göstərməyə çalışırlar: "Buna görə hər vasitəyə əl atmaqdan belə utanıb çəkinmirlər. Ermənistanın maliyyə dəstəyilə Rusiyadan olan telejurnalist S.Kulçitskayanın hazırladığı "Qayıdış" adlı sənədli film növbəti erməni təxribatı sayılmalıdır. Çünki həmin filmdə 90-cı illərdə Ermənistanın Azərbaycana təcavüzü ciddi şəkildə təhrif olunaraq təqdim edilir.

Moskvanın Azərbaycan icmasının sədri Şamil Tağıyevin adından Moskva hökumətinin Mədəniyyət Departamentinin rəhbəri Aleksandr Kibovskiyə və Kinematoqraflar İttifaqının sədri Nikita Mixalkova göndərilən müraciət təqdirəlayiqdir. Müraciətdə erməni məkrinin hansı fəsadlara yol aça biləcəyi qeyd olunub. Hesab edirəm ki, bütün hallarda, Azərbaycan icması ayıq-sayıqlığını itirməməlidir. Fikrimcə, Moskva rəhbərliyi və müvafiq qurumlar provokasiyanın işləməsinə imkan verməyəcəklər. Ermənilərin ifşa olunan daha bir məkrli planı da iflasa uğrayacaq".

***Vidadi ORDAHALLI***

**Ordumuzun ən müasir silahlarla təmini istiqamətində atılan addımlar indi silahlı qüvvələrimizin ixtiyarında olan yeni texnikaların sayının əhəmiyyətli dərəcədə yüksəlməsinə gətirib çıxarıb. Beynəlxalq institutların da hesabat və rəylərindən belə məlum olur ki, Azərbaycan üçün müasir silahların alışı prioritetdir.**

# Dünya silah ticarəti barədə ən son hesabatda Azərbaycanın yeri - Hindistan və Vyetnamdan sonra üçüncü...




Bu xüsusda Azərbaycanın İsraildən daha çox silah idxal etməsi də təsadüf sayılmır. Bunu Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (SIPRI) dünya silah ticarəti ilə bağlı yaydığı son hesabatdan da aydın görmək olar.

Hesabata əsasən, dünyada silah ticarəti son beş ildə 5,5 faiz artıb. Qeyd olunur ki, ABŞ dünyanın ən böyük silah ixracatçısı, Səudiyyə Ərəbistanı isə ən böyük silah idxalçısıdır. Orta Şərq regionunda silah idxalı olduqca yüksək dərəcədə artıb (61% artım). Səudiyyə Ərəbistanında isə son 5 ildə silah idxalı 130% artıb. Qeyd olunan müddət ərzində Rusiyanın silah ixracatı azalıb. Çin isə dünyanın 5-ci ən böyük silah ixracatçısıdır və dünyanın 53 dövlətinə silah satır. Ermənistanın son 5 ildə silah idxalının, demək olar ki, bütün hissəsini Rusiya silahları təşkil edib. Azərbaycanın silah idxalının 60 faizini İsrail, 31 faizini isə Rusiya silahları təşkil edib. Ümumiyyətlə, İsrail silahlarının ən iri idxalçıları arasında Azərbaycan Hindistan və Vyetnamdan sonra üçüncü yeri tutur. Bu ixracatın tərkibində ən müxtəlif tipli pilotsuz uçuş aparatları, o cümlədən fəaliyyət radiusu 1000 kilometrə çatan ən yeni zərbə modifikasiyaları əhəmiyyətli yer tutur. İsraildən müdafiə məqsədli kibernetik sistemlərin alışı da Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycan ordusunun cəbbəxanasında, həmçinin, "Barak-8" zenit raket kompleksləri də məhz İsraildən alınıb. Həmin komplekslər rəqibin təyyarələrinin ələ keçirilməsi, eyni zamanda dənizdən və qurudan buraxılmış raketlərin vurularaq məhv edilməsi məqsədini güdür. Onlar hava hədəflərini səs sürətindən aşağı və yüksək sürətlərdə hərəkət edərək, ən müxtəlif hündürlükdə və məsafədə vurur. İsrailin ən iri özəl şirkəti olan "Elbit Systems" Azərbaycana məxsus bir neçə T-72 tankını modernləşdirib. Modernləşdirmə çərçivəsində "Elbit Systems" Azərbaycan tanklarında yeni atəşin idarə olunması sistemləri və müasir zireh quraşdırıb. Elə həmin İsrail konserni Bakıya 120 millimetrlik özüyeriyən CARDOM minaatanları ixrac edir. Bu minaatan müasir atəşin idarə olunması sisteminə, naviqasiya blokuna, avtomatik yönləndirmə sisteminə və özünəməxsus güc qurğusuna malikdir. Azərbaycan ordusunun sərəncamına İsraildə istehsal edilmiş "Green Pine" raket əleyhinə radiolokasiya sistemi də verilib. Bu sistem "Israel Aerospace Industries" konserninin törəmə strukturu olan "ELTA Systems" şirkəti tərəfindən istehsal olunub. Bu mobil radiolokasiya sistemi avtonom şəkildə rəqib tərəfindən radioelektron mübarizə vasitələrindən istifadə edildiyi şəraitdə onlarla taktiki ballistik raketi izləmək və aşkar etmək üçündür. İsrail Azərbaycan ordusuna həm də daşına bilən POMINS-2 məsafədən minaların zərərsizləşdirilməsi sistemləri verib ki, bunların köməyi ilə yarım dəqiqə ərzində minalanmış ərazilərdə eni 1,5 metr, uzunluğu isə 50 metr olan keçidlər yaratmaq olar. Bu məqsədlə raket buraxılır və o, bütün minalanmış ərazi üzrə partıayıcı qurğusu olan kabel dartır, onun partlamasından sonra isə bütün piyadalar əleyhinə minalar partlayır, məftil sədlər isə dağılır.

Azərbaycanlı hərbçilərin cəbbəxanasında İsraildə istehsal edilmiş "Mikro-uzi" kiçik həcmli tapança-pulemyotlar, "Tavor-21" şturm tüfəngləri və "Neqev" əl pulemyotu da var ki, bunları "Israel Military Industries" istehsal edir. Eyni zamanda, İsrailin "Rafael" şirkətinin istehsalı olan "Spayk" çoxfunksiyalı raket kompleksləri də Azərbaycana ixrac olunur. Azərbaycana İsrailin istehsalı olan "ATMOS 2000" artilleriya qurğusu da ixrac edilib.

Ermənistandan fərqli olaraq, Rusiya da Azərbaycana ən müasir təyyarələri böyük həvəslə satmağa hazır olduğunu bildirir və ölkəmizin buna maliyyə imkanları da çatır. Hətta məlumdur ki, ötən illərdə Rusiya tərəfindən Azərbaycana Su-30SM və MiQ-35 təyyarələri təklif olunub. Rusiyalı hərbi ekspert Sergey Suvorov hazırda Azərbaycanla Rusiya arasındakı hərbi-texniki əməkdaşlığın uğurla davam etdirildiyini bildirib: "Azərbaycan həmişə Rusiyanın strateji tərəfdaşı olub və bu cür də qalır. Bu gün Bakı ilə Moskva olduqca yaxşı və sıx əlaqələrə malikdir. Ümid edirəm ki, bizim Azərbaycanla qarşılıqlı faydalı münasibətlərimiz gələcəkdə də davam edəcək və əhatə dairəsi genişlənəcək". Bundan əlavə, Azərbaycan digər Qərb ölkələrindən də silah alır. Məsələn, ölkəmiz artıq İtaliyadan 10 ədəd hərbi məqsədlər üçün istifadə olunan, reaktiv təlim-məşq təyyarəsi olan "M-346 Master" alıb. Azərbaycan daha 15 ədəd "M-346 Master" təlim-döyüş təyyarəsi sifariş verib. "M-346 Master" İtaliyanın "Leonardo" şirkətinin istehsalı olan hərbi məqsədlər üçün istifadə olunan reaktiv təlim-məşq təyyarəsidir.

**Digər tərəfdən o da məlumdur ki, Azərbaycan Pakistandan da yeni nəsil qırıcılar almağı düşünür. Artıq Pakistanla Azərbaycan arasında hərbi-texniki əməkdaşlıq zaman keçdikcə daha da dərinləşir və möhkəmlənir. Bu fonda Azərbaycan Çin və Pakistanın birgə istehsalı olan dördüncü nəsil "JF-17 Thunder" çoxməqsədli qırıcı təyyarəsini əldə etmək niyyətini dilə gətirib. Bütün bunlar Azərbaycanın hərbi gücünün daha da artmasına imkan verir.**

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Ankaranın Qarabağ fəallığının artmasına Rusiya da mane olmayacaq - Ermənistanda böyük əndişə...



**Məlum həqiqətdir ki, bu gün Cənubi Qafqazda hadisələrin inkişaf axarının müəyyən edilməsində Azərbaycan və Türkiyə faktorunun xüsusi çəkisi getdikcə artmaqdadır. Təbii ki, bu hal digər məqamlarla yanaşı, Dağlıq Qarabağ münaqişəsinin də gedişinə əhəmiyyətli dərəcədə təsir göstərmək iqtidarındadır.**

Elə işğalçı Ermənistanı narahat edən əsas məqamalardan biri də məhz budur.

Ermənistan Elmlər Akademiyasının Şərqşünaslıq İnsitutunun direktoru, türkoloq Ruben Safrastyan bildirir ki, hazırda Türkiyə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqları həyata keçirən ATƏT-in Minsk Qrupunun tərkibinə daxil olmaq istəyir. Safrastyan qeyd edir ki, Türkiyə indiyə qədər bu na dəfələrlə cəhd edib:"Lakin Ermənistanın qarşı çıxması bu cəhdlərin qarşısını alıb. Türkiyə Ermənistanın buna razı olmayacağını bilir, lakin bu istiqamətdə təşəbbüslərini davam etdirir. Ankara regionda əsas oyunçulardan biri kimi davranır və əsas hədəflərindən biri məhz Qarabağ münaqişəsinin həlli prosesində söz sahibi olmaqdır". Erməni ekspert etiraf edir ki, Bakı və Ankara öz maraqları fonunda olduqca ağıllı strategiya həyata keçirir. Bu xüsusda o vurğulayır ki, Ankaranın Moskva ilə münasibətlərini yenidən normal məcraya qaytarması da Türkiyənin Qarabağ məsələsində təsirlərini artırmaq imkanı yaradır. Digər erməni şərqşünas ekspert Hayk Qabrielyan da eyni mövqeni bölüşür:"Türkiyə tərəfinin Qarabağla bağlı yüksək səviyyəli son bəyanatları əvvəlki illərin bəyanatlarından müəyyən qədər fərqlənir". Onun sözlərinə görə, Türkiyənin son bəyanatlarında Qarabağ probleminin onun da problemi olduğu vurğulanır: "Türkiyə Azərbaycan üzərində, Rusiya da Ermənistan üzərində təsirə malik olduğunu vurğulayır, buna görə də səylərin birləşəcəyi halında Rusiya və Türkiyə nəticələr əldə edə bilər. Başqa cür desək, əməkdaşlığın "Suriya modeli" təklif olunur. Türkiyə son bəyanatları ilə vurğulayır ki, Qarabağ problemi onun da problemidir, yəni qeyd edilən problemin həllinə aktiv şəkildə müdaxilə etmək səlahiyyəti var. Bu bəyanatlar bizim üçün narahatlıqvericidir. İkincisi, Türkiyə Rusiyanı bu problem ətrafında razılaşmaya dəvət etməyə başlayıb və qeyd edib ki, Rusiya malik olduğu təsiri istifadə etməlidir".

Başqa bir erməni ekspert Baqrat Estukyan da bu fikirdədir və o, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə ATƏT-in Minsk Qrupu həmsədrlərinin son görüşünün bu mənada təsadüfi xarakter daşımadığını qeyd edir:"Bu təhlükəli addımdır, çünki Türkiyə Dağlıq Qarabağ probleminin nizama salınması prosesində heç vaxt tərəfsiz ola bilməz. Amma Türkiyə Qarabağ münaqişəsinin nizama salınması prosesinə cəlb olunmaq məsələsində dəstək ala bilər. Xüsusən də Rusiyadan. Türkiyənin bu mənada bəzi əsasları var. Digər tərəfdən unutmaq olmaz ki, beynəlxalq ictimaiyyət bir neçə dəfə Azərbaycanın ərazi bütövlüyü barədə bəyanat verib". Daha əvvəl "Vahid Ermənistan" partiyasının rəhbəri Artur Qazinyan da belə bir açıqlama ilə çıxış etmişdi ki, Azərbaycanla Türkiyə Ankaranın Qarabağ münaqişəsinin nizama salınması prosesində daha aktiv rol oynaması məsələsində səy və resursunu əsirgəməyib. O, xüsusilə qeyd edib ki, ATƏT-in Minsk Qrupu həmsədrlərinin Türkiyənin xarici işlər naziri ilə görüşünü erməni diplomatiyasının ciddi uğursuzluğu hesab edir: "Suriyanın şimalında vəziyyətin gərginliyi fonunda Türkiyə geosiyasi proseslərdə regional iştirakını genişləndirərək Qarabağı Yaxın Şərq dolaşığının tənzimlənməsi gündəminə daxil etməyə çalışır. Bizi çox çətin zamanlar gözləyir. Türkiyə istəyinə nail olmaq üçün Kremldən də istifadə etməyə çalışır".

Qeyd edilənlər fonunda o da məlumdur ki, əslində, Qarabağ münaqişəsinin həlli istaqmətində müəyyən irəliləyiş əldə etmək üçün vasitəçilik formatında yeniliklər olması artıq zəruri haldır. çünki Ermənistanın mövqeyi üzündən Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli, belə demək olarsa, dondurulub və ekspertlər hesab edir ki, vasitəçilik missiyası formatını dəyişmək lazımdır. Elə bununla bağlı olaraq vaxtaşırı yeni vasitəçi ölkələr qismində Minsk Qrupunun tərkibinə Türkiyənin əlavə olunması haqqında fikirlər səslənir. Çünki Türkiyə bu məsələdə müsbət rol oynaya bilər. Eləcə də, münaqişənin həlli üçün indi yeni təsirli format kimi Rusiya-Türkiyə ikiliyinin çıxış edə biləcəyi də ekspert dairələrində geniş qəbul olunur. Rus politoloq Aleksandr Sotniçenko məhz bu xüsusda xatırladır ki, Azərbaycan tərəfi ATƏT-in Minsk Qrupunun dəstəklədiyi Dağlıq Qarabağ münaqişəsinin "dondurulmuş formatından" çox narazıdır: "Həmsədrlər tərkibinə Azərbaycanın müttəfiqi kimi Türkiyənin daxil edilməsi Minsk Qrupu vasitəçilər formatını daha dinamik edə bilərdi". Eləcə də, iki güclü regional oyunçu kimi Rusiya və Türkiyənin əməkdaşlığı uzunmüddətli perspektivdə Dağlıq Qarabağ münaqişəsinin həllinə kömək etmək iqtidarındadır. Erməni hərbi ekspert Karen Veranyan bu xüsusda qeyd edir ki, Ankara öz işini ehtiyatlı tutur:"Ankara Moskva ilə münasibətləri fonunda Qarabağ məsələsində aktiv rol oynmağa çalışır. Bakı da Qarabağ məsələsini öz maraqlarına uyğun şəkildə həll etmək üçün Türkiyə vasitəsilə Rusiyaya təzyiq göstərməyə cəhd edir. Prosesə daha fəal qoşulduqdan sonra Türkiyə antierməni məntiqində fəaliyyətini dah ada genişləndirəcək. Bu, ilk növbədə qardaş ölkə olan Azərbaycanla ümumi strategiyadır və bu strategiya Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü kontekstində həll edilməli olduğunu nəzərdə tutur. Təsadüfi deyil ki, Bakıda son Ərdoğan-Əliyev görüşündən sonra Çavuşoğlu Minsk Qrupunun həmsədrləri ilə görüşüb. Bu bir daha bu məntiqi vurğulayır ki, Azərbaycan və Türkiyə eyni əlyazmaya sahibdir".

Bununla yanaşı, ekspert dairələrində belə fikirlər də səslənir ki, Ankara Qarabağ məsələsinin həllində fəal iştirak etmək istədiyi təqdirdə Rusiyanın buna ciddi müqavimət göstərməsi də gözlənilmir. Əksinə, Kreml Türkiyə ilə işbirliyi şəraitində bu məsələnin artıq həllində müəyyən nailiyyətlərin olmasında maraqlıdır. Regionun digər vacib oyunçusu sayılan ABŞ-ın da prosesə hansısa ciddi müqavimət göstərməsi istisna olunur. Çünki ABŞ üçün Ermənistanla müqayisədə Azərbaycan və Türkiyə daha vacib ölkə sayılır. Elə erməni amerikaşünas politoloq Suren Sarkisyan da məsələyə məhz bu prizmadan yanaşır. O, Konqresdə erməni lobbisinin mövqeyinin zəifləməsini də bu amillə izah edir: "Birləşmiş Ştatlar Konqresinin erməni məsələləri üzrə komissiyasının həmsədri, konqresmen Frenk Pallone Azərbaycana hərbi yardımı dayandırmağı təklif edib və Ermənistana böyük yardım etməyə çağırış edib. Amma lobbiçi strukturlar nə qədər güclü iş həyata keçirsə də, Birləşmiş Ştatlar həmişə öz marağını rəhbər tutduğunu bir daha göstərdi. Son parlaq nümunəni - prezident Obama və yəhudi lobbiçiləri, yaxud hətta yəhudi dövləti arasında İranın nüvə proqramı ilə bağlı yaranmış problemi unutmayaq. Demək istəyirəm ki, Birləşmiş Ştatlar hər zaman öz milli maraqlarını rəhbər tutur, Azərbaycana yardım etmək məqsədi varsa və bu məqsəd məhz hərbi sahədə əməkdaşlıq barədədirsə, hansısa lobbiçi qrup hər hansı formada Birləşmiş Ştatlara mane ola, öz milli təhlükəsizliyi və dövlət maraqlarından irəli gələn addımları ata bilməz". Sarkisyanın sözlərinə görə, təşəbbüs olduqca vacibdir, lakin Azərbaycan ABŞ üçün prinsipial əhəmiyyətə malik dövlətdir:"Azərbaycan Birləşmiş Ştatlara müxtəlif istiqamətlərdə ciddi dəstək nümayiş etdirir. Aydındır ki, nə qədər lobbiçilik işi həyata keçirilsə də, Azərbaycana verilən yardım azaldılmayacaq və ya sıfırlaşmayacaq, çünki aşkar Amerika marağı var. Lobbiçilərimiz bunun, ən azından, Ermənistana verilən yardımla bərabərləşməsi üçün işləməlidirlər. Amma bu da çətinləşib. Türkiyə və Azərbaycanın mövqeyi artıq burada öz sözünü deyir. Təbii ki, bu şəraitdə Ankaranın Qarabağ məsələsində fəallığına da ABŞ hansısa maneə yaratmayacaq".

Digər tərəfdən məsələnin başqa bir önəmli tərəfi də var. Məlumdur ki, Türkiyənin Suriyada həyata keçirdiyi uğurlu hərbi əməliyyat bu ölkənin bölgədə rolunu və çəkisini artırıb. Ancaq Türkiyə bununla kifayətlənmək istəmir. Ankara son zamanlar strateji müttəfiqlərinin və tərəfdaşlarının çağırışlarına səssiz qalmır, dəstək verir. Məsələn, Türkiyə Liviyadakı müttəfiqi olan mərkəzi hakimiyyətin xahişilə Tripoliyə silahlı qüvvələrini göndərib.

Azərbaycan Türkiyəyə Liviyadan da yaxın müttəfiqdir. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana səfəri zamanı bunu bir daha səsləndirdi və xüsusilə vurğuladı ki, Dağlıq Qarabağ probleminin həllində rəsmi Bakının yanındadır. Bu isə o deməkdir ki, Bakının çağrışı ilə Ankara Qarabağ məsələsinin həllində daha aktiv rol sahibi kimi çıxış edə bilər. Türkiyənin indiyə qədər Dağlıq Qarabağ münaqişəsinin həllində fəallığına mane olan qüvvələr isə aradan qalxır. Söhbət burada ilk olaraq Rusiya amilindən gedir. Amma Kremlin artıq məsələyə baxışı, yuxarıda qeyd olunduğu kimi, dəyişir. Azərbaycan isə dəfələrlə Türkiyənin Dağlıq Qarabağ münaqişəsinin həllində fəal tərəf qismində görmək istədyini bəyan edib. Bütün bunlar, Ermənistanın narahatlığına baxmayaraq, Türkiyənin yaxın perspektivdə Qarabağ məsələsinin çözümündə daha fəal rol oynaya biləcəyini istisna etmir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanın Qarabağ münaqişəsinin əsl mahiyyətini gizlətmək cəhdləri - onu xristian-islam savaşı kimi təqdim etməyə çalışırlar

**İşğalçı Ermənistan Azərbaycan torpaqlarını işğal etməklə kifayətlənməyib, Qarabağ münaqişəsinin başvermə səbəblərini də təhrif etməkdən qalmır. Bütün beynəlxalq qurumlara, xarici dövlət başçılarına çatdırmaq istəyir ki, guya bu münaqişə Qarabağın erməni və azərbaycanlı əhalisi arasında gedir, bu bir etnik qarşıdurmadır.**

Əslində isə belə deyil. Faktiki olaraq, ermənilər Dağlıq Qarabağ və ətraf rayonlarda son iki yüz ildə yerləşdirilib və onlar bu torpaqlarda tarixən yaşamayıblar. Lakin bütün dünya bilir ki, Ermənistan silah gücünə, eyni zamanda da bəzi böyük dövlətlərin dəstəyi, havadarlığı ilə Azərbaycan ərazilərini qəsb edib.

Dağlıq Qarabağ münaqişəsinin gerçək mahiyyəti ermənilərin Azərbaycan torpaqlarına sahiblənməsi və ərazilərini genişləndirmək istəyi ilə bağlıdır. Lakin bir çox halda, qeyd etdiyimiz kimi, ermənilər Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini gizlədərək onu bölgədə mövcud olan(?) islam-xristian qarşıdurması kimi qələmə verməyə çalışırlar. Halbuki, bu gün erməniləri çıxmaq şərtilə, Azərbaycanın bölgədə yaşayan heç bir xristian xalqı ilə problemi yoxdur. Dağlıq Qarabağı və ətraf rayonları işğal etməklə Ermənistan bölgədə hələ ki, söndürülməsi mümkün olmayan bir münaqişə ocağı yaradıb.

Onu da qeyd edək ki, ermənilər tərəfindən Qarabağ münaqişəsi ilə bağlı "Vikipediya"da Azərbaycan dilində yerləşdirilən məqalədə də bu, belə qeyd edilir: "1980-ci illərin sonlarından 1994-cü ilin mayına kimi cənub-qərbi Azərbaycanda yerləşən Qarabağ bölgəsində Ermənistan Respublikası tərəfindən dəstəklənən Qarabağın etnik ermənilərinin əksəriyyəti ilə Azərbaycan Respublikası arasında baş vermiş etnik və ərazi münaqişəsidir". Əlbəttə, burada söhbət Ermənistanın torpaqlarımıza təcavüzündən və bu münaqişəni xristian-müsəlman münaqişəsi kimi təbliğ etməsindən gedir.

Tarixçilər vurğulayırlar ki, müasir informasiya və texnologiya dövründə, elmi innovasiyaların nüfuz etdiyi bir vaxtda ermənilərin Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini gizlətməsinin özü gülüncdür. Çünki artıq dünyanın bütün ölkələri yaxşı bilir ki, Dağlıq Qarabağ münaqişəsi etnik münaqişə deyil, ermənilərin Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində baş verən bir savaşdır.

Müstəqil Azərbaycan dövlətinin ərazisində ənənəvi olaraq milli azlıqlar (o cümlədən, ermənilər), habelə müxtəlif konfessiyaların nümayəndələri yaşayırlar. Xalqımız ta qədimdən genişürəkli və humanist olması ilə səciyyələnir.

Qarabağ Azadlıq Təşkilatının rəhbəri Akif Nağı qeyd edir ki, Qarabağ münaqişəsi, problemi kimi tanınan məsələ Azərbaycanın torpaqlarının, Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayonun, cəmi 14 min kvadratkilometrlik ərazinin Ermənistan tərəfindən işğal edilməsindən ibarətdir. Ermənistan və onun havadarlarının işğal faktına başqa don geyindirmək cəhdlərinin heç bir əsası yoxdur. "Qarabağ müharibəsinin kökündə həm Azərbaycana qarşı əsassız ərazi iddiaları, həm də İslam dünyasının mövqelərinin zəifləd ilməsinə cəhd dayanır. Ona görə də mən bu müharibəni həm də İslam dünyasına qarşı təcavüz kimi nəzərdən keçirirəm.

Xristian qəsbkarları tarix boyu ermənilərdən müsəlman ölkələrinə qarşı dəfələrlə istifadə ediblər. Buna dair Türkiyə, İran, Azərbaycan, Yaxın Şərq və digər ölkələrin tarixində çoxlu sayda nümunə var. Ermənilərin islam dininə uyğunlaşa bilməmələri, islama düşmən münasibət sərgiləmələri onlardan bu yolda istifadə olunmasını şərtləndirir. İslamın ilk xəlifələrindən Həzrət İmam Əli (ə) də bu fakta diqqəti yönəltmiş, ermənilərin islama qəbul edilməməsi ilə bağlı göstəriş də vermişdi. Dünyanın elə bir xalqı yoxdur ki, onun müəyyən bir hissəsi, heç olmasa, tanınmış bir şəxsi islamı qəbul etməsin. Yalnız ermənilər bu mənada istisna təşkil edirlər, bir nəfər də tanınmış erməni olmayıb ki, islamı qəbul etsin və ya islam haqda müsbət fikir səsləndirsin.

XVII əsrdə Osmanlı imperiyasında sırf konyuktur maraqlar baxımından bir qrup erməni islamı qəbul etdi, onlara "amşen" deyilirdi. İndi onların az bir qismi Türkiyədə və Şimali Qafqazda qalmaqdadırlar, lakin nə erməni kimi erməni, nə də müsəlman kimi müsəlmandırlar. Ona görə də ermənilərin həmişə antiislam cəbhəsində, düşərgəsində yer alması heç kəsi təəccübləndirməməli və hər kəs tərəfindən nəzərə alınmalıdır.

Ermənilər bu regiona yad ünsür kimi gəliblər, bir neçə yüz il sonra xristian dinini qəbul ediblər və bundan sonra böyük xristian dövlətlərinin himayəsinə sığınaraq ətraf ölkələrdən torpaq almağa çalışıblar. Böyük xristian dövlətləri ermənilərin bu istəklərindən öz maraqları üçün yararlanmağa çalışıblar. Erməni müəllifləri özləri etiraf edirlər ki, haylar (ermənilər) e.ə VIII əsrdə Balkanlarda yaşayırdılar, həmin vaxt kimmeri tayfaları o ərazilərdən keçərək Kiçik Asiyaya gəlir, erməniləri də özləri ilə gətirirlər. Ermənilər indiki Türkiyə ərazisində bu cür peyda olublar. Onların digər ərazilərə yayılması Ərəb Xilafətinin vaxtına təsadüf edir. Erməni kilsə yazılarında göstərilir ki, ermənilər İran ərazisinə XVI-XVII əsrlərdə Kilikiyadan, yəni Kiçik Asiyadan köçüb gəliblər. Onlar Azərbaycana da təxminən bu vaxtlar gəliblər. Ermənilərin Matedaran arxivindəki sənədlərdən birində göstərilir ki, erməni keşişi Qriqor XV əsrin sonlarında Üçkilsə (ermənilərin "Eçmiədzin" dedikləri) və daha 6 kəndi Ağqoyunlu hökmdarlarından pulla, 530 min Təbriz dinarına aldı.

Orta əsr müəllifləri yazırlar ki, XVII əsrin sonu - XVIII əsrin əvvəlində İrəvan şəhərində 2 min ev, təxminən 10 min əhali var idi. Burada ermənilərin sayı təxminən 300 nəfər idi, onlar da şəhər ətrafında yerləşmişdi. Yerdə qalanların hamısı azərbaycanlı idi. Rus mənbələrinin bildirdiyinə görə, 1826-cı ildə İrəvan xanlığında əhalinin 80 faizi azərbaycanlı, 20 faizi digər millətlər, o cümlədən, erməni idi. Rusiya imperiyasının köçürmə siyasəti nəticəsində 1886-cı ildə azərbaycanlıların sayı 50 faizə enmişdi, ermənilər isə 48 faiz təşkil edirdi. Bu nisbət 1918-ci ilə qədər, yəni İrəvanın ermənilərə güzəştə gedildiyi vaxta qədər də dəyişməmişdi. 1918-ci il mayın 29-da gənc Azərbaycan Respublikası böyük dövlətlərin, daha doğrusu, xristian dövlətlərinin təzyiqləri qarşısında İrəvanı ermənilərə verməyə məcburiyyətində qaldı. Ermənilərin bu gün "qədim erməni şəhəri" kimi təqdim etdikləri İrəvan şəhərinin və bölgəsinin tarixi bundan ibarətdir. Onu da qeyd edim ki, İrəvan şəhərinin adı 1936-cı ildə Sovet hökumətinin qərarı ilə dəyişdirilərək "Yerevan" edildi. Ermənilər xristian dövlətlərinin köməyilə Səfəvi dövlətinin məşhur sərkərdələrindən Rəvanqulu xanın saldığı və onun adını daşıyan Rəvan (İrəvan) qalasını, şəhərini, mahalını bax, bu cür erməniləşdirib erməni məmləkətinə çevirdilər. Qarabağda da eyni proseslər gedirdi. Rus mənbələrinə görə, 1823-cü ildə, yəni tam rus işğalı ərəfəsində indi "Dağlıq Qarabağ" adlandırılan (bu termini də 1921-1923-cü illərdə rus hökuməti ortaya atdı, o vaxta qədər vahid Qarabağ, başdan-başa azərbaycanlıların yaşadığı, Azərbaycan məmləkəti olan Qarabağ mövcud idi) ərazilərdə azərbaycanlılar 80 faiz, ermənilər 20 faiz təşkil edirdi. Rusların köçürmə siyasəti nəticəsində az sonra, 1832-ci ildə bu rəqəmlər 65 faiz və 35 faiz, 1897-ci ildə isə müvafiq olaraq 53 faiz və 45 faiz təşkil etdi. Rusların bütün səylərinə baxmayaraq (onlar azərbaycanlıları zorla çıxarır, yerlərinə erməniləri gətirirdilər), azərbaycanlılar hələ də üstünlük təşkil edirdilər. Yalnız Sovet hökumətinin dövründə azərbaycanlıları qırıb məhv etməklə bu nisbəti ermənilərin xeyrinə dəyişə bildilər. Qarabağda yaşayan azsaylı ermənilər həmişə xristian faktorunu qabartmağa, bununla xristian dövlətlərinin dəstəyini qazanmağa çalışırdılar. Onlar Avropanın xristian dövlət başçılarına, Rusiyanın rəhbərlərinə məktublar yazır, "müsəlman zülmü"ndən imdad diləyirdilər. Əslində, onlara heç bir zülm edilmir, hər cür şərait yaradılmışdı. Onlar hər şeyi saxtalaşdırır, ağ yalan yazmaqdan çəkinmirdilər. 1798-ci ildə 2 erməni məliyi (kəndxudası) Qarabağdan rus hökmdarı I Pavelə məktub yazmışdı. Cəmşid adlı birisi yazırdı ki, mən Şuşa qalasının hakimiyəm, gəlin, sizi qarşılamağa hazırıq. Həmin dövrdə Şuşa Qarabağ xanlığının mərkəzi idi, hökmdarı isə azərbaycanlı İbrahim xan idi. O birisi, Firudin adlı məlik isə yazırdı ki, mən İyirmidördlər tayfasının başçısıyam və s. Qarabağda belə bir tayfa var idi, təmiz azərbaycanlı tayfası idi. Buna erməni yalançılığı, saxtakarlığı demək azdır, gərək erməni səfehliyi, axmaqlığı deyəsən. Amma təəssüf ki, bu səfehliyə inananların da sayı az deyil. Bu gün də dünyası, daha doğrusu, xristian dünyası bizim dediyimiz açıq-aydın həqiqətlərə deyil, erməni səfehliyinə, axmaqlığına, sayıqlamalarına inanır. Nə üçün? Çünki bu, müsəlman-xristian qarşıdurmasıdır. Xristian dünyası ermənilərin tərəfini vermək istəmir. Bölgədə xristian ermənilərin üstünlüyünə, yeni ərazi zəbt etməsinə nail olmağa çalışır. Xristian dövlətləri regionda müsəlman təsirinin, mövqeyinin zəiflədilməsini istəyir və bunun üçün erməni faktorundan alət kimi istifadə edirlər" - deyə A.Nağı bildirir.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Martın 8-də özünü "feminist" adlandıran bir qrup qadının Bakının küçələrində aksiya keçirməsi və burada əxlaqdankənar davranışa yol verməsi, əxlaqsızlığı təbliğ edən şüarlar, plakatlarla meydana çıxması cəmiyyət tərəfindən çox kəskin etirazla qarşılandı.**

# Bakıda 8 mart aksiyasının təşkilatçıları ailə dəyərlərimizi necə təhqir etdilər...

***Əhməd Qəşəmoğlu:** "Bu aksiya Azərbaycanı istəməyən, milli ailə dəyərlərimizi ləkələməyə cəhd edən hansısa xarici qüvvələrin, institutların maliyyələşdirdiyi bir layihə təsiri bağışladı"*



Onların "8 Marş - bizimdi hürr küçələr" adlandırdıqları aksiya birbaşa əxlaqsızlığın təbliğ edilməsi, əxlaqsızlığa çağırış idi.

Hansısa xarici təşkilatlardan qrant qoparmaq amacı ilə Fəvvarələr meydanında aksiya keçirməyə cəhd edən radikallaşmış "feminist"lər bununla öz mahiyyətlərini açıq şəkildə büruzə verdilər.

Yerli "feminist"lərin tələbləri, "18+" tipli şüarları lap əttökən idi. Öz bədən üzvlərinə "azadlıq" istəyən bu "feminist"lər, əslində, azadlığın nə olduğundan xəbərsiz olduqlarını da bəyan etmiş oldular. Onların anlayışında feminizm Bakının mərkəzində əxlaqsızlığı təbliğ etmək idi. Bunun nəticəsində də böyük ictimai qınağa məruz qaldılar.

Bu arada Bakıda "feministlər"in aksiyası zamanı qalmaqallı plakatı ilə gündəmə gələn Aysel Ələkbərzadənin özünü binadan ataraq intihara cəhd etməsi xəbəri də yayıldı. Bu, başqa mövzunun söhbətidir.

Bakının küçələrində əxlaqsızlığı təbliğ edən "feministlər"in əsas hədəfi Azərbaycanın milli ailə dəyərləridir ki, onlar əllərində tutduqları şüarlarla milli ailə dəyərlərimizi, Azərbaycan qadınını ləkələməyə cəhd etdilər. Ekspertlər qeyd edirlər ki, onların tapşırıq aldıqları beynəlxalq təşkilatlar beş-üç manat müqabilində həmin "feminist"ləri küçəyə buraxmaqla Azərbaycan xalqının milli ailə dəyərlərini hədəfə alıblar. Azərbaycan qadınının əxlaqına yad olan şüarlar səsləndirən o qadınlar özləri bununla Azərbaycan qadınının adına ləkə olduqlarını ortaya qoydular.

Tanınmış sosioloq, professor Əhməd Qəşəmoğlu "Bakı-Xəbər"ə bildirdi ki, "feministlər" öz başlarına bu aksiyanı keçirməyiblər, bu aksiya Azərbaycanda ailə dəyərlərini dağıtmaq, məhv etmək istəyən xarici qüvvələrin layihəsdir. "Mən bu aksiya ilə bağlı yayılan videolara, fotolara baxdım, bu qətiyyən mənə xoş təsir bağışlamadı. Burada söhbət onların hansısa bir demokratiya, azadlıq istəyindən getmir. Bu aksiya Azərbaycanı istəməyən, milli ailə dəyərlərimizi ləkələməyə cəhd edən hansısa xarici qüvvələrin, institutların maliyyələşdirdiyi bir layihə təsiri bağışladı. Azərbaycanın ailə dəyərlərinə qarşı uzun illərdir bu cür çirkli layihələr həyata keçirilir. Dəfələrlə demişəm, "Azərbaycanda qadın azadlığı yoxdur", "qadınları əzirlər" və s. şüarlarla keçirilən aksiyalar Azərbaycanı istəməyən qüvvələrin layihəsidir. Çünki Azərbaycan ailəsini dağıtmaq, parçalamaq, ləkələmək istəyən beynəlxalq institutlar yerli "feminist"lərdən istifadə edirlər. "Bu gün Azərbaycan ailəsi gərgin vəziyyətdədir, biz ailəmizi gərgin vəziyyətdən çıxarmaq üçün yollar axtarmalıyıq" deyənlər sanki Azərbaycan kişisinin dünyada "vəhşi" obrazını yaratmaq istəyirlər. Bunu təbliğ edirlər. Bu istiqamətdə gedən işlər də təbii ki, cəmiyyətin xeyrinə deyil. "Demokratiya", "azadlıq" deyən aksiyaçıların şüarlarından da, onların davranışlarından da açıq şəkildə görünürdü ki, burada tamamilə başqa əhval-ruhiyyə var. Hətta indiyə qədər siyasi şüarlarla meydanlara çıxıb aksiya keçirən adamların özləri belə "feminist"lərin əxlaqsızlığı təbliğ edən şüarlarından şoka düşmüşdülər ki, bunlar kimdir, bunlar haradan çıxdılar? Azərbaycan xalqının ailə dəyərlərinin bu şəkildə hədəfə alınması qəbuledilməzdir.

*"Azərbaycan xalqının ailə dəyərlərinin bu şəkildə hədəfə alınması qəbuledilməzdir"*

Hesab edirəm ki, "feminist"lərin aksiyalarında tamam yeni siyasi texnologiyalar işlənib. Biz çalışmalıyıq ki, Azərbaycan qadını azad olsun, demokratik dəyərlərə uyğun olaraq yaşasın. Amma bunu aydınlaşdırmaq lazımdır ki, azadlıq nədir? Amma azadlıq kimin keyfi nə istəyir onu etmək deyil. "Bədən mənimdir, onu nə cür istəyirəm xərcləyərəm" şüarı ilə ortaya çıxmaq demokratiya, azadlıq deyil. Azadlıq hər bir insana öz təyinatına görə fəaliyyət göstərmək üçündür".

**Ə.Qəşəmoğlu deyir ki, qadınların azad olması deyəndə onların istedadlarının, biliklərinin, daxili potensialının həyata keçirilməsi üçün yaradılan şərait nəzərdə tutulmaldır. "Bu imkanlar xalqın, ölkənin tərəqqisinə xidmət etməlidir. Yoxsa, dağıdıcılığı, əxlaqsızlığı təbliğ etmək üçün istənilən azadlığın azadlığa dəxli yoxdur. Bizim ölkədə azadlıq, demokratiya barədə lazımi qədər maarifləndirmə işi aparılmayıb. İnsanlar yaxşı bilməlidirlər ki, azadlıq mahiyyət etibarilə nədir, nəyə azadlıq, nəyə özbaşınalıq demək olar. Bu istiqamətdə maarifləndirmə işinə ölkəmizdə böyük ehtiyac var" - deyə Ə.Qəşəmoğlu qeyd etdi.**

*İradə SARIYEVA*

**Məlum olduğu kimi, martın 8-də Bakıda qadın hüquqları ilə bağlı aksiya keçirilib. Özlərini feminist adlandıran bir qrup qadın şəhərin mərkəzində, əhalinin istirahət etdiyi, çoxsaylı iaşə və ticarət mərkəzinin olduğu ərazidə belə bir yürüş keçirib.**

# Sosial şəbəkələrin gücü tərbiyəsiz "feminist aksiyanı" darmadağın etdi

***Fatimə Hacıbəyli:** "Aksiya iştirakçıları qadın hüquqlarını qorumaq adı altında etik baxımdan düzgün olmayan şüarlar səsləndiriblər"*




Yürüşdə iştirak edən qadınların səsləndirdiyi şüarlar ölkə ictimaiyyəti tərəfindən xoş qarşılanmır. Sosial şəbəkədə paylaşılan şüarların bəziləri birmənalı qarşılanmayıb.

Qeyd edək ki, martın 8-də əksər ölkədə qadınlar öz hüquqlarını qorumaq üçün müxtəlif formada aksiya keçirirlər. Ancaq həmin aksiyalarda "qadın qətlləri", "qadına qarşı şiddət", "erkən nikaha son" kimi şüarlar səslənir. Bir neçə gün öncə ölkəmizdə keçirilən aksiyada iştirakçıların əlində çoxlu sayda plakat var idi. Plakatlarda yazılan şüarların bəzilərində vulqar ifadələr yer almışdı. "Kimə istəsəm..." kimi şüarlar ölkə ictimaiyyəti tərəfindən mənfi qarşılanır.

"Vəfa" Sosial-İctimai Birliyinin sədri Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, martın 8-də keçirilən aksiyada səslənən rəzil şüarlar azadlıq və ləyaqətlə bir araya sığmır:

*"Martın 8-də keçirilən aksiyada səslənən rəzil şüarlar azadlıq və ləyaqətlə bir araya sığmır"*

"Bu tip şüarlar, ilk növbədə, qadın azadlığına, hürriyyətə və qadın ləyaqətinə ziddir. Ümumiyyətlə, insan ləyaqəti vahiddir. Bu cür təzahürlər, ümumilikdə, insan ləyaqətinə ziddir".

Həmsöhbətimiz onu da əlavə etdi ki, aksiya iştirakçıları qadın hüquqlarını qorumaq adı altında etik baxımdan düzgün olmayan şüarlar səsləndiriblər: "İştirakçıların səsləndirdiyi şüarlar gənclərin tərbiyəsini pozur.

"Cinsi əlaqələrdə azadlıq!" şüarı isə, əslində, seksual azğınlığın, homoseksuallığın, lesbiyanlığın, biseksuallığın, transgenderliyin və sairin təbliğatı, bu anormal təmayülləri yaymaq, cəmiyyətin təməli olan ailə institutunu darmadağın etmək cəhdidir".

*Günel CƏLİLOVA*

# Dünya neft müharibəsinin mərkəzində yenə Səudiyyə - 20 dollar...

**Dünya bazarında neftin qiyməti ilə bağlı yaşanan təlatüm bütün ölkələr tərəfindən böyük narahatlıqla izlənməkdədir. Çünki qiymət enişi təkcə hasilatçı ölkələrə yox, digər dünya ölkələrinə də təsirsiz ötüşmür. Ən azı o baxımdan ki, dünya miqyasında istehlak və investisiya yatırımı əhəmiyyətli dərəcədə azalır.**




Xatırladaq ki, ucuzlaşmaya səbəb Vyanada OPEC+ ölkələrinin nazirlərinin görüşündə hasilat həcmi ilə bağlı razılıq əldə edilə bilinməməsidir. Belə ki, nazirlər neft hasilatına tətbiq edilən məhdudiyyətlərin uzadılması barədə razılığa gələ bilməyib. Elə bundan sonra qiymətlərdə kəskin eniş başlanıb. İndi dünya bazarlarında neftin qiyməti bir barrelə görə, markasından asılı olaraq, 30-35 dollar arasında dəyişir. Belə qiymət heç bir hasilatçı ölkə üçün sərfəli sayılmır. ABŞ-ın "Goldman Sachs" investisiya bankı isə neftin qiymətində azalmanın 20 dollaradək davam edə biləcəyini proqnozlaşdırıb. Belə şok ucuzlaşmanın digər səbəbi budur ki, Rusiya hasilatı azaltmaqdan imtina etdikdən sonra Səudiyyə Ərəbistanı Moskvaınn bu həmləsinə qarşı hasilatı artırmağa qərar verib və müştərilərə çox ucuz neft təklif edir. Koronavirusun dünyada yayılmağa davam etməsi də hazırda neftin qiymətinə mənfi təsir edən amillərdən biridir. Əsas fundamental problem həm də dünya iqtisadiyyatının artım tempinin zəifləməsi və yanacağa tələbatın aşağı düşməsidir.

Britaniyanın "Times" qəzeti yazır ki, vəziyyət gərgindir və Səudiyyə Ərəbistanı neft sahəsində Rusiya ilə təhlükəli müharibəyə başlayıb. Analitiklərdən biri bunu "neft bazarında müharibə elan edilməsinin ekvivalenti" adlandırıb. "Financial Times" isə qeyd edir ki, neft müharibəsi ABŞ-da "zibil istiqrazları"nın bazarı üçün də təhlükəli olacaq. Neftin qiymətinin düşməsinin effektlərini şərh edərkən başqa bir ekspert bəyan edib ki, bu gedişlə bazarda "qan töküləcək". "Rapidan Energy Group"un əməkdaşı bildirib ki, bu, qiymətlərin kəskin düşməsinin "hələ başlanğıcıdır". "Wall Street Journal" yazır ki, neft qiyməti rekord həddə düşüb. Sonuncu dəfə qiymət 2016-cı ildə "dibi görmüşdü". Bütün bunlar isə "Saudi Aramco" neft şirkətinin qiymətləri endirəcəyi bəyanatından sonra baş verdi. Nəşrin fikrincə, bu bəyanat Səudiyyə Ərəbistanı ilə Rusiyanın münasibətlərini korlaya bilər. Nəşr OPEC iştirakçıları və səudiyyəlilərə istinadən bildirir ki, bu fəaliyyət bazarda Moskvanın payını ələ keçirmək üçün "aqressiv kampaniya"nın bir hissəsidir. Bildirilir ki, gələn ay Səudiyyə Ərəbistanı hasilatı gündə 10 milyon barrelədək artırmağı planlaşdırır, bu azmış kimi, lazım gələrsə, həttə onu maksimal mümkün həddə - gündə 12 milyon barrelə çatdıra bilər. Qəzet yazır ki, qiymətin kəskin düşməsinə koronavirusun iqtisadiyyata təsiri də səbəb ola bilər. "New York Times" isə öz növbəsində qeyd edir ki, neftin qiyməti 20%-dən çox düşüb, bu isə 1991-ci ildən bəri ən kəskin azalmadır. Qəzet hesab edir ki, Səudiyyə Ərəbistanı ilə Rusiya razılığa gələ bilər, amma böhran davam edərsə, "neftin qiymətinin, ən azından, son beş il ərzində ən aşağı həddə çatmasına heç nə mane ola bilməyəcək".

Qəzet əlavə edir ki, neftin qiymətinin bu cür enməsi "bütün dünyada istehsalçılara", xüsusilə "neft iqtisadiyyatı" ABŞ sanksiyaları altında əzilən Venesuela və İrana ziyan vuracaq. Aşağı qiymətlərin uzun müddətə bərqərar olması, eləcə də Amerikanın böyük borcu yığılmış neft şirkətlərinə iqtisadi təzyiqi də artıracaq. Bu zaman Nigeriya, Anqola və Braziliya kimi neftdən asılı ölkələr də güclü iqtisadi çöküşdən zərər görə bilər. "Washington Post" qeyd edir ki, koronavirusun törətdiyi yeni neft müharibəsi qiymətlərin kəskin enməsinə səbəb olub. Nəşr "Exxon" şirkətinin Yaxın Şərq üzrə keçmiş eksperti Əli Hədərinin sözlərini sitat gətirir:"20 dollarlıq neft 2020-ci il üçün tamamilə realdır. Neftin qiymətlərinin kəskin düşməsi böyük geosiyasi nəticələrə səbəb olacaq".

"Bloomberg" agentliyi yazır ki, qiymətlərdə faciəli çökmə "Exxon Mobil Corp" kimi nəhənglərdən tutmuş Qərbi Texasdakı kiçik şist qazma şirkətlərinə qədər enerji sənayesində rezonans doğuracaq. İraqdan Nigeriyaya qədər neftdən asılı ölkələrin büdcələrinə zərbə vuracaq və Səudiyyə Ərəbistanı kimi ölkələrin təsirini korlayaraq qlobal siyasəti dəyişdirəcək: "Hyustonda yerləşən "Lipow Oil Associates MMC"-nin prezidenti Andi Lipoi deyib: "İnanılmazdır, bazarı açıq satış dalğası bürüyüb. OPEC+ qiymət müharibəsi gedir". Koronavirusa görə tələbat getdikcə azalır, neft bazarında xaos daha da dərinləşir. Səudiyyə Ərəbistanı rəsmi qiymətləri həftəsonu ən azı 20 ildəki minimuma endirib və alıcılara məhsul hasilatının artacağını bildirib. Bu, bazarı xam neftlə doldurmaq niyyəti barədə birmənalı bəyanatdır. Rusiya şirkətlərinin bacardıqları qədər hasilatı gücləndirəcəyini açıqlayıb.

Hər dəfə qiymət müharibəsi başladıqda, neft qiymətləri kütləvi enişə məruz qalıb. "West Texas Intermediate" 1985-ci ilin sonundan 1986-cı ilin martına qədər, ABŞ-da neft hasilatının yenidən qurulması şərtilə, 66% itirib. Səudiyyə Krallığı 1990-cı illərin sonlarında Venesuela ilə qarşıdurma apararkən "Brent" markalı xam neftin qiyməti 1 barrelə görə 10 dollardan aşağı düşüb. Koronavirusun iqtisadiyyata təsiri ucbatından neft tələbatı onsuz da azalmaqda ikən, tacirlər qiymətlərin daha da enəcəyini proqnozlaşdırır. Nyu-Yorkdakı "Goldman Sachs" şirkətinin əmtəə araşdırmalarının rəhbəri Cefri Körri deyib: "Neft bazarı artıq iki qeyri-müəyyən nəhəng sarsıntı ilə qarşı-qarşıya qalıb".

Təbii ki, baş verənlər Azərbaycanda da diqqətlə izlənir. Belə görünür ki, Azərbaycan neft qiymətindən yaşanan itkiləri təbii qaz satışı və qeyri-neft məhsullarının ixracı hesabına ödəməyə çalışacaq. Xatırladaq ki, bu il Azərbaycan qazının Avropa satışı başlanır. Qeyri-neft sahəsində də vəziyyət ölkəmizin lehinə dəyişir. İxracın stimullaşdırılması və təşviqi ilə bağlı görülən kompleks işlər nəticəsində qeyri-neft məhsullarının ixracı dəyər ifadəsi ilə ötən il 20 faizə yaxın artıb. Cari il ərzində qeyri-neft ixracının 3 milyard dollara yaxın həddə çatması gözlənir. Bu isə neft qiymətlərində itkiləri kompensasiya etməyə imkan verir.

***Ramil QULİYEV***

**Dünya birjalarında neftin qiymətinin kəskin ucuzlaşması ölkəmizdə ciddi müzakirələrə yol açıb. Bunu təbii anlamaq olar. Çünki baş verən ucuzlaşmanın daha çox iqtisadiyyatı neftdən asılı olan ölkələrə mənfi təsir ehtimallarına dair fikirlər səslənir.**

# Neft qiymət böhranından Azərbaycan üçün iqtisadi risq ehtimallarına o qədər də ciddi baxılmır...

## *Aydın Hüseynov: "Belə epizodik halların qarşısını almaq gücünə malik iqtisadiyyatımız formalaşıb"*

Azərbaycan da neft ixrac edən ölkə olduğu üçün bu risqlərdən tam sığortalanmayıb. Əksər ekspert hesab edir ki, bu şəkildə ucuzlaşma neftin qiymətinin uzun müddət belə qalacağı anlamına gəlmir. Neftin qiymətinin düşməsinin ölkə iqtisadiyyatına təsiri bu proseslərin hansı istiqamətdə davam edəcəyindən asılı olacaq. Ehtimallara görə, uzun müddət neftin qiyməti 30-35 dollar belə olarsa, Azərbaycan iqtisadiyyatına 1 ildən sonra ciddi mənfi təsir göstərə bilər. Bu müddətdən tez təsirlərin qarşısı alına bilər. Çünki ölkənin kifayət qədər qızıl ehtiyatı var. Bununla yanaşı, uzun müddətdir Neft Fondu büdcəsini artıqlaması ilə başa vurur. Ona görə də kifayət qədər valyuta rezervi var. Bildirilir ki, qısa müddətdə neftin 30-35 dollar olması Azərbaycan iqtisadiyyatına ciddi problemlər yaratmayacaq. Güman ki, yaxın həftələrdə qiymətlərin 40-45 dollar ətrafında sabitləşməsinin şahidi olacağıq. Bu da Azərbaycan iqtisadiyyatında təxminən 1,5-2 milyard valyuta daxilolmalarının azalması deməkdir.

Yaranmış vəziyyətin ölkə iqtisadiyyatına hansı risqləri vəd edə biləcəyi ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən millət vəkili Aydın Hüseynovun fikrincə, bunun üçün ciddi ajiotaja səbəb görmür: "Mən də izləyirəm ki, iqtisadiyyatdan xəbəri olmayan bəzi şəxslər yersiz panika toxumu səpirlər. Hətta 3-cü devalvasiyanın ola biləcəyinə dair yanlış rəylər bildirilir. Azərbaycanda bir neçə il əvvəl devalvasiya oldu və gördük ki, hökumət əhalinin əziyyət çəkməməsi üçün gərəkən nə lazımdırsa etdi. Hazırda yaranmış vəziyyətin ciddi fəsadlara yol açacağını demək doğru olmaz. Biz neft ixrac edən ölkəyik. Qəbul etməliyik ki, neftin qiyməti nə qədər baha olarsa, bir o qədər də çox pul büdcəyə daxil olacaq. Bizə sərf edən variant neftin baha satılmasıdır. Ancaq qiymətin ucuzlaşması heç də o demək deyil ki, iqtisadiyyatımız diz çökəcək. Məhz bu cür amillərdən sığortalanmaq üçün, Azərbaycan hakimiyyəti uzun müddətdir qeyri-neft sektorunun inkişafını




stimullaşdırır. Dövlət başçısı qeyri-neft sektoruna daha çox investisiya yatırılması barədə konkret tapşırıqlar verib. Prezident tərəfindən bir sıra ciddi institusional islahatlar reallaşdırıldı. İndi başlıca məqsəd dəyişən reallıqlarda adekvat pul-kredit, investisiya siyasətinin həyata keçirilməsi olmalıdır".

Ekspertin sözlərinə görə, belə hallar əlaqədar qurumlar tərəfindən geniş şəkildə təhlil edilir: "Bizim çox zəngin valyuta ehtiyatlarımız var. Belə epizodik halların qarşısını almaq gücünə malik iqtisadiyyatımız formalaşıb.

Hətta dövlət büdcəsi qəbul ediləndə belə neftin qiymətinin aşağı və yuxarı hədləri də müəyyən olunur. Ölkə iqtisadiyyatına bu halın ciddi təsiri olmayacaq. Yəni heç bir təsirinin olmayacağını demirəm. Söhbət ciddi fəsadlara səbəb ola biləcək halların olmadığından gedir. Bununla belə, manatın kursunun stabil saxlanması üçün ciddi qabaqlayıcı tədbirlər görülməlidir.Dövlətin bununla bağlı müəyyən edilmiş planları var. Bu cür vəziyyətdə yalnız dövlət yox, hamı həssas olmalıdır. Yəni kəmərləri bir qədər bərkitmə rejiminə keçməliyik. İqtisadiyyatın qorunması ilə bağlı məsuliyyət dövlətlə yanaşı, iş adamları, sadə vətəndaşların da üzərinə düşür".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Dünya bazarında neftin kəskin ucuzlaşması neft ölkələrinin valyutalarına mənfi təsir etməyə başlayıb. Artıq qonşu Rusiyanın valyutası rubl öz dəyərinin 20%-ni itirib. Məlumat üçün bildirək ki, martın 10-da "AzəriLayt" markalı Azərbaycan neftinin barreli 36,62 dollara düşüb.**

# Əlindəki manatı tələsik dollara çevirənlər düzmü edir?

## *Fikrət Yusifov: "Ölkənin iqtisadi və maliyyə dayanaqlığı milli valyutanın məzənnəsinin sabitliyi üçün kifayət qədər yetərlidir"*




Bu, büdcə qiymətindən 18,38 dollar aşağı qiymətdir. Azərbaycanın 2020-ci il büdcəsində neftin qiyməti 55 dollardan götürülüb. "AzəriLayt" yanvara 70,04, fevrala 62,15, marta 53,77 dollarla başlayıb.

Neft Çindən üzə çıxaraq dünyanın bir çox ölkəsini bürüyən koronavirus epidemiyası fonunda ucuzlaşmağa başlayıb. İri neft ixracatçılarını birləşdirən OPEC və bir neçə qeyri-OPEC ölkəsi martın 6-da hasilatı azaltmaq razılığına gələ bilmədiyi üçün qiymətlər daha kəskin enib.

Neftin qiymətinin düşməsi devalvasiyanın olacağı ehtimalını gündəmə gətirib. Artıq bəzi insanlar devalvasiyanın olacağından ehtiyat etdikləri üçün, əllərindəki milli valyutanı dollara çevirirlər.

Onu da qeyd edək ki, Azərbaycanda banklardan, xüsusən də "exchange banklar" kimi tanınan "Amrahbank", "Gunay Bank" və "Express Bank"dan dollar alışı təxminən 40-50 faiz artıb. Ümumilikdə, ötən 2 həftədə dolların qiymətində artım qeydə alınıb və alışla satış arasındakı məzənnədə kəskin - 40 qəpik fərq yaranıb.

*"...manatın məzənnəsinin hələ uzun müddət sabit qala bilməsi üçün..."*

Məsələ ilə bağlı fikir bildirən iqtisadçı-ekspert Fikrət Yusifov qeyd etdi ki, dünya bazarlarında neftin qiymətinin kəskin azalması və bunun hansı fəsadlar yarada biləcəyi ilə bağlı müxtəlif məlumatlar paylaşılır: "Bəli, Azərbaycan dünyanın iqtisadi müstəvisinin bir parçası kimi bu proseslərdən kənarda deyil. Lakin baş verənləri "iqtisadiyyat çökəcək, manat 2015-ci ildəki kimi kəskin devalvasiyaya məruz qalacaq" kimi təqdim etmək nə qədər doğrudur və bu kimlərə lazımdır? Azərbaycan manatı artıq bir neçə ildir öz sabitliyini qoruyub saxlayır və manatın məzənnəsinin hələ uzun müddət sabit qala bilməsi üçün hökumətin kifayət qədər böyük imkanları var.

Bu gün bütün banklarda xarici valyutanın satışı tam sərbəst şəkildə, heç bir məhdudiyyət qoyulmadan, bir dollar üçün 1 manat 70 qəpik kursu ilə həyata keçirilir. Odur ki, ajiotaj yaratmaq lazım deyil. Ölkənin iqtisadi və maliyyə dayanaqlığı milli valyutanın məzənnəsinin sabitliyi üçün kifayət qədər yetərlidir".

***Günel CƏLİLOVA***

Dünya koronavirus xəstəliyindən əziyyət çəkir. Ölkələr bir-birinə qapılarını bağlayır, kütləvi tədbirlər təxirə salınır, iqtisadi əlaqələr məhdudlaşdırılır. Məlumat üçün bildirək ki, dünyada koronavirusa yoluxanların sayı 110 min nəfəri keçib. Ümumdünya Səhiyyə Təşkilatının statistikasına görə, virusdan ölənlərin sayı 3831 nəfər olub.

***"PAOS" şirkəti:** "Qiymətlər bir kvadratmetrə 1 manatdan təklif edilir, dezinfeksiya ediləcək sahə böyük olduqca qiymətdə endirim edirik"*

***"Expel Azərbaycan":** "Dezinfeksiya üçün qiymətlər fərqlidir, bizdə qiymət 1 kvadratmetrə 50 qəpikdən 3 manatadəkdir"*

# Təmizlik şirkətləri də dezinfeksiyanı 50 qəpikdən 3 manata qaldırdılar - koronavirus şansını buraxmayanlar...




Dünya üzrə xəstəlikdən sağalananların sayı isə 62 min 300 nəfəri keçib.

Azərbaycanda da xəstəliyin yayılmasının qarşısını alamaq üçün kompleks şəkildə profilaktik tədbirlər görülür. Koronavirus təhlükəsi ilə əlaqədar ölkəmizdə də qabaqlayıcı tədbirlər həyata keçirilir. Məlum olduğu kimi, təhsil müəssisələrində məlum virusla bağlı dərslər müvəqqəti olaraq dayandırılıb. Bu müddət ərzində ölkənin bütün tədris müəssisələrində dezinfeksiya işləri aparılır. Dezinfeksiya işləri tək təhsil ocaqlarında deyil, iaşə obyektlərində də aparılır.

Dövlət tərəfindən xəstəliyin qarşısının alınması üçün çoxlu sayda iş görülür. Ancaq bəzi şəxslər artıq qazanc əldə etmək üçün koronavirus kimi xəstəlikdən də istifadə edirlər. Danılmaz faktdır ki, bir qrup şəxs Azərbaycanda maska və spirtin qiymətini qaldırdı. İndi də dezinfeksiya işi ilə məşğul olan şirkətlər dezinfeksiya xidmətini də bahalaşdırıblar. Məlumat üçün bildirək ki, təmizlik şirkətlərinin bir kvadratmetr sahənin dezinfeksiyası üçün təklif etdikləri qiymət 50 qəpik - 1 manat olduğu halda, hazırda bu xidmət üçün 3 manat tələb olunur.

Mütəxəssislər isə dezinfeksiyanın təsirli olması üçün istifadə edilən preparatların keyfiyyətli olmasını və bu işin professional şəkildə aparılmasının vacib olduğunu bildirirlər.

Dezinfeksiya işi ilə məşğul olan şirkətlərin qiyməti nə səbəbdən bahalaşdırdığını öyrənmək üçün həmin şirkətlərlə əlaqə saxladıq.

"PAOS" şirkətinin nümayəndəsi bildirdi ki, şirkət lisenziya əsasında fəaliyyət göstərir: "Bizim şirkət Avropa və Amerikanın tanınmış "Pestcontrol" şirkətləri ilə əməkdaşlıq edir və onların istehsal etdiyi pestisidlərdən yararlanır. Qiymətlər bir kvadratmetrə 1 manatdan təklif edilir. Dezinfeksiya ediləcək sahə böyük olduqca qiymətdə endirim edirik".

"Expel Azərbaycan" təmizlik şirkətindən qeyd etdilər ki, dezinfeksiya üçün qiymətlər fərqlidir: "Bizdə qiymət 1 kvadratmetrə 50 qəpikdən 3 manatadəkdir. 3 manata dumanlama işləri də aparırıq. Bu xidmət zamanı virusun qalma ehtimalı demək olar ki, yoxdur.

Amma bunun üçün bahalı dezinfeksiyaedici məhlullardan istifadə edirik. İşlətdiyimiz dezinfeksiyaedici məhlullar Almaniya istehsalı olduğundan, bahadır. 1 kvadratmetri 50 qəpiyə təklif edilən dezinfeksiya isə Belarus istehsalı olan ucuz məhlullarla aparılır. Onu da vurğulayaq ki, yaşayış binalarında blokları 100-120 manata dezinfeksiya edirlər".

***Günel CƏLİLOVA***

Məlumata görə, hazırda ölkədə ümumi məhkəmə işlərinin 10-dan ən az 6-sı problemli kreditlərlə bağlıdır. Yenə də kredit borcunu qaytara bilməyən vətəndaşları banklar təzyiq altında saxlayır. Deyirlər ki, nə edirsən et, get pulu gətir.

# Problemli kreditlər yenə məhkəmə sistemini iflic vəziyyətə salmağa başlayıb...




***Fuad İbrahimov:** "Bu problemlərin yaranmasında bankların da günahı az deyil"*

Vətəndaş pulu tapa bilməyəndə isə icra məmurları məhkəməyə təqdimat verirlər ki, həmin vətəndaş inzibati qaydada bir ay müddətinədək həbs olunsun. Həbs müddəti isə adətən 10-15 gün olur. Bu kimi hallar var və təəssüf ki, hələ də davam edir. Əslində isə vətəndaş borcunu verə bilmirsə, bu işə xitam verilməli və borc silinməlidir. Təəssüf ki, bəzən nəinki borclunu, hətta zamini də həbs edirlər. Konstitusiya Məhkəməsinin 2012-ci il qərarına görə, barəsində məhkəmə qərarı olanı o halda məsuliyyətə cəlb etmək olar ki, imkanı var, amma borcunu vermir. Ancaq bu kimi məqamlar nəzərə alınmır. Ötən il Prezident İlham Əliyev problemli kreditlərlə bağlı qərar verdi. Bundan daha çox faydalanan da elə banklar oldu. Ümid edilirdi ki, bankların problemli kreditlərlə bağlı vətəndaşlarla olan məhkəmə işləri əhəmiyyətli dərəcədə azalacaq. Ancaq görünən odur ki, banklar hər fürsətdə vətəndaşları incitməyə çalışır. İstehlak kreditlərinə üstünlük verməklə vətəndaşları şirnikləndirir. Sonra da onları borc bataqlığına çəkirlər və proses məhkəmə müstəvisində davam edir. Bütövlükdə sözügedən problemdən necə qurtulmaq olar?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, belə məhkəmə işlərinə görə təkcə bankları günahlandırmaq obyektiv olmaz: "Bəli, bu problemlərin yaranmasında bankların da günahı az deyil. Necə gəldi kredit veriblər, sonra onun qaytarılmasını nəzərə almayıblar. Nəticədə belə mübahisələr məhkəmə müstəvisinə daşınır. Ona görə də problemli kreditlərin tərkibinə baxmaq lazımdır. Yəni bu problemli kreditlər haradan yaranır. Bütün günahı bankların üzərinə atmaq doğru yanaşma olmaz. Problem ondadır ki, bəzi kateqoriyadan olan vətəndaşlarda məsuliyyət hissi çox aşağıdır. Krediti götürürlər, amma onun qaytarılmasına ciddi yanaşmırlar. Bu da son nəticədə işin məhkəmə müstəvisinə gedib çıxmasına səbəb olur. Eləsi var ki, devalvasiya səbəbindən krediti verə bilməyib. Bununla bağlı ötən il Prezident İlham Əliyevin qərarı var. Hökumət bu məsələdə kifayət qədər lazımi tədbirləri gördü.

*"Problem ondadır ki, bəzi kateqoriyadan olan vətəndaşlarda məsuliyyət hissi çox aşağıdır"*

Reallıq ondan ibarətdir ki, bəzilri kredit götürərkən öz imkanlarını düzgün hesablamır. Elə vətəndaş var ki, kreditlə telefon alır. Sonra həmin telefonu qiymətindən ucuz nağd qiymətə satır. Ancaq buna rəğmən, krediti ödəmir. Belə məsuliyyətsiz vətəndaşlar var və kreditə görə məhkəmə çəkişmələrinin bir hissəsi belə hallardan yaranır. Ona görə də bununla bağlı maarifləndirmə işi gücləndirilməlidir. Bütün hallarda, problemli kreditlərin tərkib hissəsi araşdırılmalıdır".

***Vidadi ORDAHALLI***

# Elm ocağının kitabxanasını ödənişli edirik və ardınca da kitab oxumağı tələb edirik

**İlahə Feyziyeva:** *"MEK-də tətbiq edilən qiymətlərə yenidən baxılması gözlənir"*

**Son günlər Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasının (MEK) ətrafında müxtəlif söz-söhbətlər səngimir. Elm adamlarının MEK-ə ünvanladığı iradlar abunə haqqının bahalığı ilə əlaqədardır. Elm adamları, xüsusən də gənc elmi işçilər narazılıq edirlər ki, MEK-də əvvəllər illik abunə haqqı 100 manat olsa da, son zamanlar 150 manat olub.**

Bu vəsaiti ödəmək də AMEA strukturundan kənarda çalışan elm adamları üçün çətinliklər törədir.

Ekspertlər bildirirlər ki, bu məbləğdə üzvlük haqqının müəyyən edilməsi, faktiki olaraq, MEK-in qapısını gerçək elm adamlarının, xüsusən də tələbələrin, elmlə məşğul olan gənc tədqiqatçıların üzünə bağlayır. Əslində isə bütün dünyada kitabxanalar, xüsusən də elmi tədqiqat üçün gərəkli olan materialların, nəşrlərin qorunduğu elmi kitabxanalar ödənişsizdir, yaxud da ora çox cüzi ödənişlər edilir.

Qeyd edək ki, bir neçə gün əvvəl Leyla İmanova MEK direktoru vəzifəsindən azad edilib, onun yerinə isə Sevil Zülfüqarova təyin olunub. Sosial şəbəkələrdə yayılan məlumata görə, L.İmanovanın MEK direktoru vəzifəsindən azad edilməsinin səbəbi abunə haqqını 150 manata qaldırması olub. Biz onun vəzifədən hansı səbəblərə görə uzaqlaşdırıldığının təfərrüatlarını bilmirik. Amma fakt budur ki, kitabxananın abunə haqqı bahadır və bu, qətiyyən, elm adamlarının büdcəsilə uyğunluq təşkil etmir.

Onu da qeyd edək ki, MEK-in sabiq direktoru L.İmanova hələ vəzifəsində olarkən qiymət artımı ilə bağlı açıqlama vermişdi. Həmin açıqlama MEK-in rəsmi saytında yerləşdirilib. Məlumatda deyilir: "Son günlərdə sosial şəbəkələrdə və mediada ödənişli kitabxana xidmətləri ilə bağlı AMEA rəhbərliyi və MEK ünvanına səsləndirilən fikirlərə dair aşağıdakıları diqqətinizə çatdırmaq istərdim.

2015-ci ildən başlayaraq, MEK müasir kitabxana xidmətlərini AMEA əməkdaşları ilə yanaşı, 18 yaşına çatmış bütün Azərbaycan vətəndaşlarına təqdim edir. 2017-ci ildən başlayaraq isə oxucuların xahişi əsasında və AMEA rəhbərliyinin dəstəyilə MEK 09.00-22.00 saatlarında ikinövbəli xidmət göstərir.

Xidmətlər bütün AMEA əməkdaşları və magistrantlarına imtiyazlı, Qarabağ müharibəsi əlillərinə, 20 Yanvar şəhidlərinin ailələrinə, müharibə veteranlarına, 70 yaşına çatmış və bir sıra başqa şəxslərə isə pulsuz göstərilir. Son üç il ərzində qanunvericilik çərçivəsində və şəffaflıq-hesabatlılıq prinsipləri gözlənilməklə, AMEA əməkdaşı və magistrantı olmayan şəxslərə dair yeni qiymət cədvəli təsbiq edilir.

Azərbaycan Respublikasının elm sahəsinin büdcədənkənar vəsaitlər hesabına maliyyələşdirilmə mexanizminin olmasını və MEK-in 2020-ci il üçün müəyyən etdiyi kadr, texniki, proqram təchizatı ehtiyaclarını və fəaliyyət proqramını nəzərə alaraq, MEK-in əlavə xidmətlərindən 2020-ci maliyyə ili üçün nəzərdə tutulmuş büdcədənkənar gəlirlər cədvəli yenilənmişdir. Çox da böyük olmayan büdcədənkənar vəsait kitabxananın maddi-texniki bazasının gücləndirilməsinə və əməkdaşların sosial müdafiəsinə yönəldilir.

Oxucuların istinad etdiyi "xaricdə pulsuz kitabxana xidməti" təbii ki pulsuz deyil və hər bir halda müəyyən qurumlar tərəfindən ödənilir. Müxtəlif ixtisaslar üzrə mütəxəssis yetişdirən müəssisələr öz sahələri üzrə müvafiq kitabxana xidmətləri təklif edə bilmədikləri halda, mütəxəssis kimi formalaşmasında maraqlı olduqları şəxslərin başqa kitabxanalara abunə haqlarının ödənilməsini müzakirə edə bilərlər. Burada başqa mexanizm yoxdur - xidmət göstərilirsə, müvafiq ödənişi olmalıdır. Yeri gəlmişkən, AMEA rəhbərliyi AMEA magistrantlarının MEK abunə xidmətlərini öz üzərinə götürüb.

Qiymətlərin yüksək olmasına gəldikdə isə, hazırda tətbiq edilən aylıq və illik abunə qiymətlərinə əsasən, oxucu 1 kitabxana gününə 0,62 AZN ödəyib 12 saat ərzində kitabxanadan limitsiz istifadə etmək hüququnu əldə edir. Xidmətlərin sahəsini və məzmununu müqayisə etmək niyyətindən uzaq dursaq, bu, başqa sahələrdə, məsələn, şəhərdaxili sərnişindaşıma xidmətlərinin tarifləri ilə müqayisədə çox aşağıdır. Belə ki, gün ərzində şəhər nəqliyyatına bir gediş və bir qayıdışa ödənilən 0,6 AZN ilə gün ərzində limitsiz 12 saatlıq kitabxana xidmətlərinin ödənişi təxminən eynidir.

Oxucular müzakirələr zamanı şəffaflığın olmaması məsələsini də səsləndirirlər. Qeyd etməliyəm ki, tətbiq edilən qiymətlər MEK saytında, sosial şəbəkə səhifələrində açıq şəkildə yerləşdirilir. "Oxucu kartı" oxucunun şəxsiyyət vəsiqəsi əsasında, oxucunun razılığı ilə hazırlanır, kart üçün ödənilən vəsait mədaxil orderində iki nüsxədə əks olunur, orderin bir nüsxəsi oxucuya verilir, ikinci nüsxəsi isə Maliyyə Nazirliyinə təqdim olunur. Vəsaitin aidiyyəti üzrə xərclənməsinə Maliyyə Nazirliyinin 12 saylı Xəzinədarlıq İdarəsi tərəfindən nəzarət edilir. Oxucunun şəxsi məlumatları əks olunmuş kart oxucuda saxlanılır. Oxucu kartdan istənilən vaxt, müddəti məhdudlaşdırılmadan MEK-in iş vaxtı ərzində istifadə etmək hüququna malikdir.

MEK rəhbərliyi gənclərin təhsilə və peşə inkişafına doğru atdığı ciddi addımları yüksək qiymətləndirir, Azərbaycanın inkişaf yolunu yalnız bilik cəmiyyətindən keçdiyini başa düşür, oxucuların bu sahədə səsləndirdiyi ehtiyacların qarşılanması yollarını araşdırır və bununla bağlı bir çox prosedurun (təhlükəsizlik, sənədləşdirmə, ödəniş və s.) yenilənməsi layihəsini hazırlayır.

Ümid edirəm ki, yuxarıda təqdim olunan məlumat MEK oxucularının və xidmətlərimizlə yaxından maraqlanan digər şəxslərin və qurumların suallarını cavablandırmış olacaq".



*"İllik 150 manat abunə haqqı kənardan gələn şəxslərə aiddir"*

AMEA Mərkəzi Elmi Kitabxanasının Beynəlxalq və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri İlahə Feyziyeva isə "Bakı-Xəbər"ə bildirdi ki, akademiya əməkdaşları, eləcə də bu qurumun magistrləri üçün xidmət imtiyazlıdır. "İllik 150 manat abunə haqqı kənardan gələn şəxslərə aiddir. Aylıq isə 15 manatdır. Əvvəllər isə 10 manat ödəyirdilər. Bütün bunlar xidmət səviyyəsinin yüksəldilməsi ilə bağlıdır. Qiymətin bu cür olması AMEA rəhbərliyi tərəfindən müəyyən edilib. Amma MEK-də tətbiq edilən qiymətlərə yenidən baxılması gözlənir. Bu məsələ hələ müzakirə ediləcək" - deyə İ.Feyziyeva qeyd etdi.

Həmçinin, o bildirdi ki, xidmət AMEA əməkdaşları və magistrantlarına imtiyazlı, Qarabağ müharibəsi əlillərinə, 20 Yanvar şəhidlərinin ailələrinə, müharibə veteranlarına, 70 yaşına çatmış və bir sıra başqa şəxslərə isə pulsuz göstərilir.

***İradə SARIYEVA***

№ 43 (4174) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

11 MART 2020-ci il

www.baki-xeber.com



# Taylandda koronaviruslu xəstələrə robotlar qulluq edir

**Taylandda Çulalonqkorn Universiteti və "Advanced Info Service" (AIS) rabitə operatoru 5G texnologiyası əsasında "ağıllı" robotlar hazırlayıblar.**

"Day.Az" bildirir ki, bu robotlar koronaviruslu xəstələrə qulluq etmək üçün uyğunlaşdırılıb. Artıq həmin robotlardan bir neçəsinin krallığın 3 xəstəxanasında "işə başladığı" qeyd edilir. Robotlar virusa yoluxmuş şəxslərə qulluq etməklə yanaşı, koronavirus şübhəli şəxslərdə xəstəliyin simptomlarının izlənilməsi üçün də uğurla istifadə olunur. Son məlumata görə, krallıqda 50 koronavirusa yoluxma faktı təsdiq edilib, 1 nəfər həyatını bu virusdan itirib. 33 nəfər koronaviruslu şəxsin isə sağaldığı qeyd edilir. Qeyd edək ki, 2019-cu ilin sonunda Çində başlayan koronavirus epidemiyası hazırda dünyanın 70-dən çox ölkəsini sarıb və bütün dünyada ümumilikdə bu virusa yoluxanların sayı 100 mini, ölənlərin sayı isə 3 mini keçib.

## Dünyanın ən gizli sualtı qayığının fotosu yayıldı



**"Forbes" dünyanın ən gizli sualtı qayıqlarından biri olan "Delfin"in fotosunu yayımlayıb.**

"Oxu.az" bildirir ki, bundan əvvəl sualtı qayığın şəklini bir dəfə çəkmək mümkün olub. Həmin vaxt isə təsvir çox keyfiyyətsiz alınıb. Beləliklə, 15 il ərzində Kubaya məxsus "Delfin" sualtı qayığının iki dəfə şəklini çəkmək mümkün olub.

## Kranı açdı, su əvəzinə şərab gəldi



**İtaliyanın Modena şəhərində maraqlı hadisə baş verib. "Milli.Az" xəbər verir ki, kranlarını açan yerli sakinlər gözlərinə inanmayıblar.**

Onlar krandan su əvəzinə şərab axdığını müşahidə ediblər. Məlum olub ki, şərab fabrikindəki texniki nasazlıq şərabın su çəninə axmasına səbəb olub. Nəticədə, belə mənzərə üzə çıxıb. Məlumata görə, şərab həvəskarları bu vəziyyətdən istifadə edərək, xeyli miqdarda içki əldə ediblər. Texniki nasazlıq bir neçə saatdan sonra aradan qaldırılıb.

## "Azercell"dən Novruz hədiyyələri davam edir!

**Ölkənin lider mobil operatoru "Azercell Telecom" Novruz bayramı ərəfəsində abunəçilərini sevindirməyə davam edir.**

Şirkət bayram çərşənbəsində fakturasız xətt abunəçilərinə daha bir xüsusi endirim təklif edir. Belə ki, endirim kampaniyası çərçivəsində fakturasız xətt abunəçiləri mart ayının 10-u, çərşənbə axşamı "Aylıq 30 GB" internet paketinə qoşularkən 20% xüsusi endirimdən yararlanmaq imkanı əldə edir.

Əlavə məlumat üçün https://www.azercell.com/az/personal/campaigns/monthly/novruz_endirim_yel/ müraciət edin.

Xatırladaq ki, "Azercell" fevral ayının 25-dən başlayaraq hər çərşənbə axşamı xüsusi endirim kampaniyaları keçirir və müxtəlif tarif və internet paketlərinə qoşulma zamanı endirimlərdən yararlanmaq imkanı yaradır. Mobil operator ötən həftədə "Sərbəst 15" paketinə 20%, "Limitsiz Gecə" paketinə isə 50% endirim təqdim edib.

Yel çərşənbəsi münasibətilə hər birinizi təbrik edirik! Bayramdan birlikdə zövq alaq!

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Elan

Rzayev Xanoğlan Yusif oglunun adına verilmiş JN1834, kod 504001004 Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Məmmədov Vaqif Həmzə oğlunun adına, Bakı şəhəri, Xətai rayonu, keçid 1724, ev 10, mənzil 106 ünvanına verilmiş qeydiyyat vəsiqəsi (seriya ÖM N067959) itdiyi üçün etibarsız sayılır.

Mahmudov Mübariz Əhməd oğlunun adına, Novxanı qəsəbəsində 0.12 hektar torpaq sahəsi olan 80 nömrəli bağ sahəsinin üzərindəki tikililərə icarəyə verilməsinə dair keçmiş Bağlar Təsərrüfatı İdarəsi arasında bağlanmış 09.08.1989-cu il tarixli, N26270 müqavilə itdiyi üçün etibarsız sayılır.

Quliyev Mahir Şahmar oğlunun adına, Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən verilmiş Silahlı Qüvvələrin 10 illik və 90 illik yubiley medallarının vəsiqələri, məcburi köçkün vəsiqəsi, Qarabağ müharibəsi veteranı vəsiqəsi, Silahlı Qüvvələr veteranı vəsiqəsi, pasport, 1989-cu ildə Şuşa rayonu RHK tərəfindən verilmiş hərbi bilet və sosial kart itdiyi üçün etibarsız sayılır.

Vəliyeva Marina Vladimirovna adına, Bakı şəhəri, Yasamal rayonu, Ə.Ələkbərov küçəsi, bina 12 a, mənzil 21 ünvanının çıxarışı (088360) itdiyi üçün etibarsız sayılır.

Qəribov Bəkir Namiq oğlunun adına, Bakı şəhəri, Yasamal rayonu, İ.Qutqaşınlı küçəsi, məhəllə 500, ev 1, mənzil 54 ünvanına Daşınmaz Əmlakın Dövlət Reyestr Xidməti tərəfindən verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Tələsməyin, təcrübəli insanla məsləhətləşin. Axşam saatlarında səhhətinizin qeydinə qalın. Yeni işə başlamaq üçün əlverişli gündür. Ev işləri ilə məşğul olmağı unutmayın.



**Buğa** - Şəxsi münasibətlərdə hisslərinizi açıqlamağa tələsməyin. Deyəcəyiniz sözləri və gerçəkləşdirəcəyiniz diqqət nişanələrini dəqiq seçin. İşdə rəhbərliklə anlaşılmazlıq ola bilər.



**Əkizlər** - Auditoriya ilə iş, yeni planların müəyyənləşdirilməsi, gəlirli məsələnin bünövrəsinin hazırlanması üçün əlverişli gündür. Gün ərzində baş verənlər ciddi təhlil tələb edir.



**Xərçəng** - Borcları qaytarmaq, kredit üzrə ödəniş etmək üçün yaxşı vaxtdır. Borc müxtəlif cür ola bilər. Axşam saatlarında istirahətinizi elə planlaşdırın ki, faydalı əlaqələri bərpa etmək və yenilərini yaratmaq imkanları olsun.



**Şir** - Prioritetləri dəqiq müəyyənləşdirin, güc və diqqətinizi yönəldəcəyiniz işi seçin. Bir neçə variant arasında seçim etməli olsanız, peşəkar inkişafınıza dəstək olacaq, hələ tam rasdırılmamış məsələni seçin.



**Qız** - Kreativ yanaşma və cəsarət rəqiblərinizi üstələməyinizə imkan verəcək. Şəxsi münasibətlərdə asan olmayan dönəmdir. Gözləntilərin uzandığı məqamda hövsələsizlik emosional "partlayış"a səbəb ola bilər.



**Tərəzi** - Mühüm və önəmli gündür. Sürəkli təxirə düşən məqama yenidən nəzər salmalı olacaqsınız, çünki şərtlər buna vadar edəcək. Qəza, münaqişə riski artır. Mənfi potensiallı insanlar və hadisələr sizə yaxınlaşır.



**Əqrəb** - Qarşıda naməlum, amma maraqlı nəsnənin vədlərinin işartıları var. Yeni insanlar və ideyalar peyda olur. İnadkar, əzmli, qətiyyətli olun. Bəzi nəsnələrdən imtina etmək lüzumunu sakit qarşılayın.



**Oxatan** - Yeniliklərin təməli qoyulur. Lakin təşəbbüs sizə yox, cari yaşam situasiyalarında önəmli olan fiqurlara məxsusdur. Münasibətlərin özülü dəyişir. Hansısa mövzunun zəifləməsi, önəm və marağını itirməsi, onu yeni, daha aktual məsələnin əvəzləməsi istisna deyil.



**Oğlaq** - Mühüm məsələlərin həllinə yaradıcı tərzdə yanaşın. Rəqibləri arxada qoyun. İşdə yeniliklər barədə düşünün. Gərəkli, mühüm məsələlərin həlli yollarının axtarışı ilə, fəaliyyətinizin tanıtımı ilə məşğul olun.



**Dolça** - Sizin üçün önəmli olan məsələdə dönüş zamanıdır. Yenidənqurma və dəyişikliklər faydalı ola bilər. Tərəfdaş və ya iş yoldaşı ilə münasibətlərdə mövqelərin toqquşması münaqişəyə səbəb ola bilər.



**Balıqlar** - Fəaliyyət sahəsinə yenidən baxmaq, görülən işləri təhlil etmək, kursu dəyişmək vaxtıdır. Paradoksal olsa da, problemlər və çətinliklər müsbət rol oynaya bilər. Məqsədlərinizlə hədəflərinizi dəqiqləşdirəndən sonra fəal çalışmağa başlayın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## "Xiaomi" daxili qızdırıcıya malik "ağıllı" lampa təqdim edib

**"Xiaomi" şirkəti özündə eyni anda iki cihazın xüsusiyyətlərini birləşdirən qurğularının çeşidini genişləndirib.**

Şirkət "ağıllı" tavan lampasına güclü qızdırıcı quraşdırıb. "İctnews.az" bildirir ki, "ağıllı" lampa açıq spiralla təchiz edilmiş ənənəvi modellərlə müqayisədə havanı qurutmayan infraqırmızı qızdırıcı elementlə təchiz edilib. İstehsalçının məlumatına görə, yeni qızdırıcı işə salındıqdan 3 saniyə sonra istilik yaymağa başlayır. Cihazın korpusu təxminən 400 °C temperaturda öz formasını dəyişməyən istiliyə davamlı plastikdən işlənib hazırlanıb. Yeni cihazı mobil proqram və ya "XiaoAI" səs köməkçisinin köməyi ilə idarə etmək mümkündür. Yeni qurğu iki modifikasiyada əlçatandır. Kvadrat korpusda hazırlanmış versiyanın ölçüsü 60 x 60 x 12 sm təşkil edir, işıq diodu panelinin gücü 80 vatt, qızdırıcı elementdə isə 1000 vattdır. Düzbucaqlı model (ölçüsü 90 x 60 x 12 sm) 120 və 1300 vattlıq işıq diodu massivi ilə təchiz edilib.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.